Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

7 AVQUST 2019-cu il

№ 138 (4036)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANIN «2014-CÜ İL GİZLİ HESABAT» OYUNU ERMƏNİSTAN CƏMİYYƏTİNİN GÖZÜNDƏ İFŞA EDİLDİ - «AY YOLDAŞ, MÜƏLLİFİNİ GÖSTƏR...»

səh. 8




## Paşinyanın Xankəndidə cinayətkar «miatsum» boşboğazlığına rəsmi Bakının reaksiyası çox sərt oldu

səh. 2

Ermənistan son 27 ildəki bütün Qarabağ danışıqlarını alt-üst etdi - "Miatsum" dövrü qayıtdı...

səh. 5

Xankəndidə Paşinyanın sərsəm bəyanatlarına Ermənistanın özündə etirazlar başladı

səh. 9

Azərbaycanın keçirdiyi beynəlxalq idman turnirləri hara, Paşinyanın "qaraçı köçünə" bənzər oyunları hara...

səh. 4

Qızışan ABŞ - Çin valyuta müharibəsi Azərbaycanı da özünə çəkir...

səh. 7

Bakıda hələ 1989-cu ildə qəzalı və sökülməli olan binadan bəzi ailələr bu gün də köçmək istəmir...

səh. 15

Qəbələdə toy yeməklərindən 100 nəfərin zəhərlənməsinə görə konkret hüquqi qərar verildi

səh. 15



**Əli Əhmədovun bir çağırışı və radikalların «çoxillik iflic» tezis üzərində reaksiyası...**

səh. 3

**Xalq şairi, Xalq yazıçısı adları yığışdırılır?**

səh. 14




**Dünya Bankından Azərbaycanda yoxsulluq səviyyəsi ilə bağlı uyğunsuz rəqəmlər...**

səh. 10

səh. 3

Paşinyanın Xankəndidə Azərbaycana meydan oxumasına Türkiyədən tutarlı reaksiya...



səh. 11

6 ayın sosial müdafiə tədbirlərinin ölçüyə sığışmayan miqyası...



səh. 10

1,3 milyon nəfər stipendiya və təqaüd alanların həyatı dəyişir



səh. 13

Beynəlxalq İnformatika Olimpiadası Azərbaycana nə verəcək...



səh. 13

Ölkədə ümumən müəllimliyə meyl artıb, rus bölməsi müəllimliyinə isə...



# Paşinyanın Xankəndidə cinayətkar "miatsum" boşboğazlığına rəsmi Bakının reaksiyası çox sərt oldu

**Ermənistan Baş naziri Nikol Paşinyanın Xankəndidə səsləndirdiyi məlum bəyanatına Azərbaycan XİN və Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsindən sərt reaksiya özünü gözlətməyib.**

Baki-xeber.com-un xəbərinə görə, Azərbaycan XİN-in məsələ ilə bağlı açıqlamasında deyilir ki, Ermənistan baş nazirinin 5 avqust tarixində Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında saxlanılan Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərində "ümumerməni oyunları"nın açılışında çıxış edərək, reallıqdan tamamən uzaq olan populist bəyanatlar səsləndirməsi onun bölgədə və ümumiyyətlə dünyada baş verənlərdən xəbərsiz və nə dərəcədə aciz birisi olduğunu nümayiş etdirir.

Qeyd edilir ki, bəyanatının əsasən daxili auditoriyaya nəzərdə tutulmasına baxmayaraq, bu, Ermənistan baş nazirinə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin anneksiyasına çağıran fikirlər səsləndirməsinə heç bir əsas vermir:

"Ermənistan baş nazirinin aqressiv bəyanatları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə illərdir ki, aparılan danışıqlar prosesinin ruhu və mahiyyəti ilə, o cümlədən Ermənistan və Azərbaycan arasında keçirilən sonuncu görüşlər zamanı aparılan müzakirələrlə açıq ziddiyyət təşkil edir.

Bu, həmçinin, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə böyük zərbədir. Ermənistanın siyasi rəhbərinin uzun illərdir ki, aparılan danışıqların predmetinə tam zidd olan bu bəyanatı, elə Ermənistanın özünün səsləndirdiyi, "münaqişənin yalnız sülh yolu ilə həlli" çağırışına uyğun gəlmir. N.Paşinyanın Xankəndidə etdiyi çıxışı onun həqiqi simasını üzə çıxarmış oldu.

Bütün beynəlxalq ictimaiyyət işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrimiz də daxil olmaqla Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü tanıyır. Ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstək istər, BMT TŞ-nin müvafiq qətnamələri, digər beynəlxalq təşkilatların qərar və qətnamələrində, istərsə də ikitərəfli əsasda qəbul edilmiş çoxsaylı sənədlərdə öz əksini tapıb.



Azərbaycan öz ərazilərinin işğalı ilə heç zaman barışmayacaq və işğal olunmuş torpaqlarımızın azad olunması və öz evlərindən zor gücünə didərgin salınmış məcburi köçkünlərimizin bu torpaqlara geri qayıtmasını təmin etmək üçün var gücü ilə səylərini davam etdirəcəkdir.

Niyyəti həqiqətən inkişaf və tərəqqi olan bir ölkənin rəhbərliyi təcavüzkar siyasət arxasında gizlənərək növbəti 30 ili hədəfləyən xəyali məqsədlər güdməz, əksinə, mövcud vəziyyəti qiymətləndirərək, beynəlxalq hüquqa hörmət əsasında qonşu ölkələrlə münasibətləri normallaşdıraraq daha real nəticələr əldə etməyə hədəflənər. Görünür Ermənistanın hazırkı rəhbərliyi boş vədlərlə özünü və Ermənistan xalqını aldatmaqla məşğuldur.

Bölgədə yaşanan bütün gərginliklərin, etnik təmizləmə siyasətinin qurbanı olan yüz minlərlə insanın fundamental hüququnun pozulmasının, münaqişənin sülh yolu ilə həllinə vurulan zərbənin və beləliklə də yaranmış vəziyyətin tam məsuliyyəti Ermənistan üzərindədir".

Ermənistan Baş nazirinin Azərbaycan işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndi şəhərində "Qarabağ - Ermənistandır" deyə açıqlmasını qəti şəkildə rədd edirik.

Bunu isə Ermənistan baş naziri N.Paşinyanın çıxışına dair Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

H.Hacıyev qeyd edib: "Dağlıq Qarabağ - Azərbaycandır! Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissədir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstələyir. Azərbaycan dövləti və xalqı heç vaxt Ermənistanın törətdiyi hərbi işğal və qanlı etnik təmizləmə vasitəsilə ölkəmizin ərazi bütövlüyünün pozulmasına və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə imkan verməyəcəkdir.

Ermənistan Baş naziri N.Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırış etməsi Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq ifşasıdır".

H.Hacıyev vurğulayıb ki, Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk Qrupunun həmsədrlərinə hörmətsizlik və məsuliyyətsizlik kimi qiymətləndirilməlidir: "Ermənistan baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır, təhqir edir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini məhv edir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk Qrupunun həmsədrləri cavab verməlidir.

Bu açıqlama ilə Ermənistan baş naziri həmçinin öz-özünü inkar edir və bir müddət əvvəl Dağlıq Qarabağ adından guya danışa bilməməsi haqqında bəyanatının cəfəngiyat və yalandan başqa bir şey olmadığını etiraf edir.

Bununla, Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır.

Ermənistan rəhbərliyini əmin etmək istərdik ki, Ermənistanın 2050-ci ildə inkişafına dair səsləndirilən məqsədlər utopiya olduğu kimi, Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistana birləşdirilməsi cəhdi də fantaziyadan başqa bir şey deyildir".

Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri əlavə edib ki, Ermənistan tərəfi bu təxribatçı və destruktiv açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur və ölkədaxili problemlərdən yayınmaq üçün qəsdən vəziyyəti gərginləşdirir: "Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

Heç kimin şübhəsi olmasın ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini, etnik təmizləməyə qalmış vətəndaşlarının öz doğma torpaqlarına geri qayıtmasını və beynəlxalq hüququn aliliyini təmin edəcəkdir".

***Baki-xeber.com***

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti, Əməkdar incəsənət xadimi Yusif Mirzə oğlu Nəsirliyə həyat yoldaşı Üzafə xanım Nəsirovanın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Samirə Səfərova Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti, Əməkdar incəsənət xadimi Yusif Mirzə oğlu Nəsirliyə həyat yoldaşı Üzafə xanım Nəsirovanın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**İradə Sarıyeva, Günel Cəlilova Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti, Əməkdar incəsənət xadimi Yusif Mirzə oğlu Nəsirliyə həyat yoldaşı Üzafə xanım Nəsirovanın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**"İlham çeşməsi" qəzetinin baş redaktoru şair Əziz Musa Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti, Əməkdar incəsənət xadimi Yusif Mirzə oğlu Nəsirliyə həyat yoldaşı Üzafə xanım Nəsirovanın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Baş nazirin müavini, hakim Yeni Azərbaycan Partiyasının sədr müavini Əli Əhmədov gözlənilməyən bəyanat verərək, müxalifəti "lənətlənmiş beşinci kolon" adlandırıb, partiya üzvlərini "daha sıx birləşməyə" çağırıb.**

# Əli Əhmədovun bir çağırışı və radikalların "çoxillik iflic" tezis üzərində reaksiyası...



O, müxalifəti "xarici qüvvələrin tapşırıqları əsasında" Azərbaycana qarşı şər, böhtan, yalan üzərində qurulmuş total kampaniyaya başlamaqda ittiham edib. "Məqsəd ölkəmizin davamlı inkişafı yolunda əngəl yaratmaq, insanların rifahının yaxşılaşdırılması üçün həyata keçirilən layihələrin müsbət təsirini azaltmaq, Azərbaycanın imicinin üzərinə kölgə salmaqdan ibarətdir", - deyə Əhmədov öz "Facebook" səhifəsində yazır. Bu səbəbdən Əhmədov uğurların qorunub saxlanması, gələcək uğurların isə təmin edilməsi naminə ənənələrin davam etdirilməsi, siyasi mübarizənin çirkin və təhlükəli üsullardan təmizlənməsi, "müxalifət" adı altında antimilli cəbhənin yaranmasının qarşısının alınması üçün partiya sıralarının daha da güclənməsi zərurətini qeyd edir.

Əhmədov partiyanın bütün fəal üzvlərini, gəncləri fədakarlıqlara səsləyib. Amma Əhmədov bu müraciətə səbəb olan konkret səbəb və faktı göstərmir. O, həmçinin, müxalifət tərəfindən hər hansı "böhtan" nümunəsi göstərmir. Maraqlıdır ki, Ə.Əhmədovun bu bəyanatından bəzi radikal dairələr öz düşüncələrinə və uzağa gedə bilməyən məntiqlərinə uyğun şəkildə rəy çıxarıblar. Nə qədər qəribə olsa da, bunu guya hakimiyyətin çox ağır durumla üzləşdiyi ilə əlaqələndiriblər. Həmin dairələrin mülahizəsinə görə, Ə.Əhmədovu məhz bu narahatlıq belə məzmunlu bəyanat verməyə sövq edib. Ancaq əksər ekspertlər hesab edirlər ki, Ə.Əhmədovun bir partiya funksioneri kimi analoji məzmunda bəyanat verməsi normaldır. İstənilən partiya öz üzvlərinə belə çağırış edə bilər. Nəzərə alsaq ki, Ə.Əhmədov həm də hakimiyyətdə olan partiyanın adından danışır, onda onun müxalif qüvvələrə qarşı birləşmək kimi çağırışında qeyri-adi nəsə yoxdur. Çünki hakimiyyətin rəqibi müxalifətdirsə, Ə.Əhmədovun seçdiyi ritorika tamamilə doğrudur. Razıyıq ki, Ə.Əhmədov partiyadaşlarını müxalifətə qarşı qeyri-sivil yolla hansısa mübarizəyə çağırsaydı, onda iradlar haqlı sayıla bilərdi. YAP adından edilən bu çağırışla bağlı ekspertlər nə düşünürlər?

Hakimiyyət və müxalifətə münasibətdə eyni məsafədə dayanan Azərbaycan Sosialist Patiyasının sədri Elşən Həsənov qəzetimizə bildirdi ki, hakim partiya adından verilən bəyanatın məzmununda siyasi etiket normaları pozulmayıb: "Görürsünüz ki, Ə.Əhmədov həmin müraciəti sosial şəbəkədəki hesabı üzərindən edib. Bilirsiniz, radikal müxalif dairələrin bu cür məsələlərdə mövqeyini anlaya bilmirəm. Bir tərəfdən deyirlər ki, iqtidar adamları sosial şəbəkələrdən istifadə etmirlər, digər tərəfdən isə istifadə edənləri bu şəkildə tənqidə, bir çox hallarda isə təhqirə məruz qoyurlar. Ə.Əhmədov ölkənin ən böyük partiyası, özü də iqtidar partiyasının rəhbərlərindən biridir. Hakimiyyətin maraqlarını qorumaq, onu lazım olan kadrlarla təmin etmək hakim partiyanın səlahiyyətinə aid olan məsələdir. Necə olur ki, virtual aləmin verdiyi imkandan sui-istifadə edən bəzi radikal dairələr bütün günü əhalini inqilaba səsləyə bilir, buna bir irad bildirən yoxdur. Ancaq hakim partiya öz üzvlərini məhz belə dairələrə qarşı sıx birləşməyə çağıranda buradan başqa nəticələr çıxarırlar. Mən bunu hakimiyyətdəki bərk narahatlıqla izah etməzdim. Bu cür rüşeymlərin görünməsi üçün müxalifət güclü olmalıdır. Biz radikal müxalifətdə o gücü, potensialı görə bilmirik. Son vaxtlar müxalifət adından yaranan təsisatlara baxın. Qısa bir zamanda onlar dağılır, orada təmsil olunanlar bir-birini nələrdə ittiham etmirlər? O da sirr deyil ki, müəyyən xarici qüvvələr Azərbaycanda qarışıqlıq salmaq istəyirlər. Hər bir dövlətin burada öz marağı var. Həmin qüvvələrin təsirinə düşənlərlə bağlı elə bütün partiyalar bəyanat verməlidirlər. O cür adamlara qarşı nəinki YAP, hamı sıx birləşməlidir. Çünki bizə siyasi mübarizənin sivil qaydalarla aparılması lazımdır. Mən Ə.Əhmədovun adından səslənən bəyanatı tam normal sayıram. İstənilən partiya üzvlərinə belə çağırışlar edə bilər. Hər bir partiyanın öz hədəfləri var. Müxalifətin hədəfi hakimiyyətə gəlməkdirsə, iqtidar partiyasının da hədəfi hakimiyyəti qoruyub saxlamaqdır".

***Məhəmmədəli QƏRİBLİ***

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu səfirlərlə görüşü zamanı deyib ki, ölkəsi bütün sahələrdə, o cümlədən, Dağlıq Qarabağ probleminin nizamlanması məsələsində hər zaman Azərbaycanı dəstəkləyəcək.**

# Paşinyanın Xankəndidə Azərbaycana meydan oxumasına Türkiyədən tutarlı reaksiya...



***Nəzakət Məmmədova:** "Bu cür mövqeyi o, kimlərəsə, hansısa güclərə arxayın olub verirsə, bu mənada, Türkiyənin mesajı lap yerinə düşmüş olur"*

M.Çavuşoğlu vurğulayıb ki, Azərbaycan Türkiyə üçün qardaş ölkədir. Onun bu cür konkret bəyanatla çıxış etməsi maraqlı dönəmə təsadüf edir. Söhbət Cənubi Qafqazda münasibətlərin gərginləşdiyi, İran ətrafında vəziyyətin normal olmadığı, Suriyada münaqişənin yenidən alovlana bilmə ehtimalının olduğu və ən əsası da Ermənistanın Baş nazirinin Qarabağda sülh danışıqlarını yerə vuran bəyanatla çıxış etməsi ilə eyni zamana təsadüf edir. Bu həm də Azərbaycana qarşı olan qüvvələrə verilən çox sərt və dəqiq ismarıc anlamına gələ bilər. Məhz belə gərgin atmosferdə Türkiyədən nümayiş edilən açıq dəstəyin ölkəmiz üçün nə kimi əhəmiyyəti var?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, Türkiyə kimi böyük regional dövlətin diplomatiyasının başında duran Çavuşoğlu kimi nüfuzlu, təcrübəli diplomatın fikirləri çox önəmlidir: "Bu həm Türkiyə dövlətinin sarsılmaz mövqeyidir, həm də Türkiyə rəhbərliyinin Azərbaycana şəxsi münasibətindən, Prezident İlham Əliyevlə şəxsi dostluğundan doğan bir ifadədir. Təbii ki, Türkiyənin də dünyada, regionda öz maraqları var və Azərbaycan bu maraqların təmin olunmasında müstəsna rolu olan ölkələrdəndir. Türkiyə Azərbaycanın sayəsində Avropanın enerji təchizatında söz sahibinə çevrilib, Azərbaycan Türkiyəyə böyük yatırımlar qoyub, FETÖ ilə mübarizədə daim Türkiyənin yanında olub, Rusiya-Türkiyə münasibətləri pisləşəndə Azərbaycan rəsmiləri barışıq prosesində iştirak ediblər. Məsələn, Çavuşoğlu özü etiraf və təşəkkür etmişdi ki, Azərbaycan rəsmiləri Rusiya ilə Türkiyənin münasibətlərinin yaxşılaşmasında fəal iştirak ediblər. Gördüyümüz kimi, Azərbaycan daim Türkiyənin yanında olub, bu gün də o mövqeyindədir. Üstəlik, bu yaxınlarda ölkələrimiz arasında viza prosedurunda da müsbət irəliləyiş oldu. Doğrudur, bu gün Türkiyə böyük problemlərlə üzləşib və Yaxın Şərqdə onun bilavasitə sərhədlərində böyük münaqişə alovlanıb. Türkiyə bu prosesə cəlb olunub. Lakin nüfuzlu, "Böyük 20-liyə" daxil olan, nəinki Yaxın Şərqdə, bəzi məsələlərdə dünyada söz sahibi olan Türkiyənin dəstəyi, xüsusilə erməni diasporuna qarşı Türkiyə ilə birlik, həmrəylik bizim üçün də, onlar üçün də vacibdir. Odur ki, Mövlud Çavuşoğlunun bu fikirləri çox məntiqli, əsaslı, doğru fikirlər kimi qəbul olunmalıdır".

Politoloqun sözlərinə görə, Çavuşoğlunun bu fikirləri, eyni zamanda, Paşinyanın Qarabağda verdiyi sərsəm, separatçı bəyanatlarla eyni dönəmə təsadüf edir: "Təbii ki, bununla Paşinyan dünyaya meydan oxuyub. Açıq deyib ki, işğal etdiyi torpaqları qaytarmaqdan söhbət belə gedə bilməz. Bu cür mövqeyi o, kimlərəsə, hansısa güclərə arxayın olub verirsə, bu mənada, Türkiyənin mesajı lap yerinə düşmüş olur. Yəni bunun qısa məzmunu belədir ki, Dağlıq Qarabağ məsələsində Türkiyə sona qədər Azərbaycanın mövqeyini qoruyacaq. Bizm üçün təbii ki, həm qardaş, həm də dünyanın güclü ölkələri sırasında yer alan Türkiyənin bu mövqeyini eşitmək xoş və əhəmiyyətlidir.

Bundan bəzi dairələr də ciddi nəticə çıxarmış olacaqlar. Türkiyə ilə Azərbaycan hər zaman bir-birilə qardaş olublar. Zaman-zaman bunu belə bəyanatlarla da dünyaya xatırlatmaq lap yerinə düşür".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın keçirdiyi beynəlxalq idman turnirləri hara, Paşinyanın "qaraçı köçünə" bənzər oyunları hara...

***Aydın Bağırov:** "VII ümumerməni yay oyunları Azərbaycanın evsahibliyi ilə keçirilən müxtəlif beynəlxalq idman yarışları, turnirləri ilə heç cür müqayisə edilə bilməz"*

**Oyunbazlıqda mahir olan ermənilər bir sıra məsələlərdə, o cümlədən də beynəlxalq idman turnirləri, yarışları, futbol çempionatları keçirmək sahəsində Azərbaycanla rəqabət aparmağa cəhd göstərirlər. Lakin onların bu cəhdləri heç bir nəticə vermir. İndiyə qədər Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarında "beynəlxalq" adı altında keçirdiyi bütün idman turnirləri iflasa uğrayıb.**

Beş-üç ölkədən pulla cəlb edilən komandaları nəzərə almasaq, demək olar ki, ermənilərin keçirdikləri yarışlarda heç bir dövlətin peşəkar idman komandası iştirak etməyib. Burada keçirilən yarışlarda məhəllə komandalarının iştirakı ermənilərin keçirdikləri yarışların səviyyəsinin aşağıdan aşağı olduğunun göstəricisidir.

Ermənilər avqust ayının 6-dan başlayaraq işğal altındakı Azərbaycan torpaqlarında VII ümumerməni yay oyunları keçirirlər. Bu yarışların idman turnirindən daha çox bir təxribat olduğu məlumdur və bunun da müəllifi Ermənistan rejimidir. Xankəndidə təşkil edilən yarışa xeyli sayda idmançı və yüksək çinli qonaqların gələcəyi proqnozlaşdırılsa da, hələ də qonaqların və komandaların adları açıqlanmayıb. Halbuki, bu əvvəlcədən müəyyən edilir, bilinir.

Onu da vurğulayaq ki, Türkiyə və Gürcüstan VII ümumerməni yay oyunlarında iştirakdan rəsmən imtina ediblər. Qeyd edək ki, Türkiyə idmançılarının yarışa qatılmamasının səbəbi oyunların işğal altında olan Azərbaycan torpaqlarında keçirilməsidir. İranın "Jamanak" qəzetinin məlumatına görə, VII ümumerməni yay oyunlarında İran komandası da təmsil olunmayacaq, bunun da Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxlaması ilə bağlı olduğu bildirilir. Gürcüstan mətbuatının yazdığına görə, rəsmi Tiflis erməni əsilli idmançılarına bu oyunlarda iştirak qadağası qoyub.

Gördüyümüz kimi, artıq üç ölkə rəsmən VII ümumerməni yay oyunlarını boykot edub.

Ermənistandan fərqli olaraq, Azərbaycanın evsahibliyi ilə keçirilən yarışları indiyə qədər heç bir dövlət boykot etməyib və nəzərdə tutulan bütün ölkələrin idmançıları ölkəmizdə keçirilən bütün yarışlarda böyük uğurla iştirak ediblər.

Azərbaycanda keçirilən bütün beynəlxalq yarışların yüksək səviyyədə təşkil edilməsi, idmançılar üçün lazımi şəraitin yaradılması beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanıb və bu yarışların əks-sədası, yaxşı mənada, dünyanın hər yerindən eşidilib.

Ermənistanın təşkil etdiyi heç bir beynəlxalq idman turniri hələ beynəlxalq ictimaiyyətdə əks-səda yaratmayıb.

*"Ermənistanın Azərbaycan torpaqlarında təşkil etdiyi bu tip tədbirlərin heç biri beynəlxalq idman qurumlarının siyahılarında yer almır və onlar tanınmır"*

Tanınmış idman şərhçisi Aydın Bağırov "Bakı-Xəbər"ə bildirdi ki, separatçı rejimdə təşkil edilən heç bir yarış Azərbaycanda keçirilən yarışlarla müqayisəyə gələ bilməz. A.Bağırovun sözlərinə görə, Ermənistanın "beynəlxalq" adı altında keçirdiyi heç bir yarışa beynəlxalq idman ictimaiyyəti tərəfindən ciddi dəstək verilməyib. "Separatçı rejim tərəfindən Dağlıq Qarabağda bir neçə dəfə "idman yarışları" adı altında bir neçə belə tədbir keçirilib. Ümumiyyətlə, Ermənistanın Azərbaycan torpaqlarında təşkil etdiyi bu tip tədbirlərin heç biri qanuni deyil, beynəlxalq idman qurumlarının siyahılarında yer almır və onlar tanınmır. Ermənistanın Dağlıq Qarabağda keçirdiyi bütün idman yarışları beynəlxalq idman ictimaiyyəti tərəfindən tanınmır. Beynəlxalq idman qurumlarının iştirakçısı olmadığı yarışlar heç bir vaxt səviyyə baxımından fərqlənə və dünyanın diqqətini cəlb edə bilməz. Bu yarışlar hər zaman qeyri-rəsmi keçirilən yarışlar kimi qəbul edilir. Əsas odur ki, o yarışlar tanınmır və o tip yarışlardan yalnız Ermənistanın özünün xəbəri olur. O ki, qaldı ermənilərin təşkil etdiyi VII ümumerməni yay oyunlarının səviyyəsinə, bu olduqca aşağı səviyyəli bir tədbirdir. VII ümumerməni yay oyunları Azərbaycanın evsahibliyi ilə keçirilən müxtəlif beynəlxalq idman yarışları, turnirləri ilə heç cür müqayisəyə edilə bilməz. Çünki Azərbaycanda indiyə qədər çox mötəbər, dünyada böyük əks-səda yaradan idman yarışları, turnirləri keçirilib, ermənilərin isə bu sahədə heç bir uğuru yoxdur. Bu yarışların hər biri də beynəlxalq idman qurumları tərəfindən dəstəklənib və alqışlanıb. Azərbaycanda təşkil edilən bütün beynəlxalq yarışlar öz nüfuzuna görə dünyada seçilib, müsbət mənada fərqlənib. Bu sahədə böyük təcrübəyə və təşkilatçılığa malik olan ölkəmizdə keçirilən hər bir idman turniri, yarışı beynəlxalq idman ictimaiyyəti, eləcə də azarkeşlər tərəfindən yüksək qiymətləndirilib. Biz bura I Avropa Oyunlarını, İslam Oyunlarını, Dünya və Avropa çempionatlarını, eləcə də futbol üzrə Avropa liqasının final oyununu, həmçinin, gələn il keçiriləcək Avropa çempionatının dörd oyununu daxil edə bilərik. Ümumiyyətlə, Ermənistanın keçirdiyi ən böyük yarış belə, Azərbaycanın keçirdiyi yarışların ən kiçiyi ilə də müqayisəyə gələ bilməz".



*"Bu sahədə böyük təcrübəyə və təşkilatçılığa malik olan ölkəmizdə keçirilən hər bir idman turniri, yarışı beynəlxalq idman ictimaiyyəti, eləcə də azarkeşlər tərəfindən yüksək qiymətləndirilib"*

**A.Bağırov qeyd etdi ki, separatçı rejim və Ermənistan hökuməti VII ümumerməni yay oyunlarını keçirməklə, əslində, öz mahiyyətlərini ortaya qoyurlar.**

*İradə SARIYEVA*

# Ermənistan son 27 ildəki bütün Qarabağ danışıqlarını alt-üst etdi - "Miatsum" dövrü qayıtdı...

**Ermənistanın Baş naziri Nikol Paşinyan avqustun 5-də Xankəndinin mərkəzi meydanındakı mitinqdə çıxış edib. Xankəndidə 31 il əvvəl - erməni separatizminin yeni alovlandığı dövrlərdə səslənən "birləşmək" ("miatsum") şüarları yenidən təkrarlanıb. Özü də Paşinyanın dilindən.**



Ermənistan Baş naziri deyib ki, İrəvanın Dağlıq Qarabağa dair danışıqlarda yürütdüyü diplomatiyanın yekun məqsədi "miatsumdur". Onun sözlərinə görə, münaqişənin nizamlanmasına dair istənilən qərar ancaq Ermənistan və Dağlıq Qarabağ əhalisinin ümumxalq dəstəyilə qəbul oluna bilər. Paşinyanın bu sözlərinə meydana toplaşanlar "miatsum" qışqıraraq reaksiya veriblər.

Paşinyan qeyd edib ki, Azərbaycanla aparılan danışıqların yekun məqsədi "Qarabağın öz müqəddəratını təyin etməsi yolu ilə əldə edilən nəticələri möhkəmləndirməkdir". Onun sözlərinə görə, erməni hökumətini Qarabağa dair hansısa gizli qəsd planında ittiham etmək mənasızdır, çünki hökumətin belə planı yoxdur və olmayacaq. Paşinyan bir qədər də irəli gedərək, "Qarabağ Ermənistandır" kimi fikir də işlədib.

Bununla Paşinyan, demək olar ki, indiyə qədər aparılan bütün sülh danışıqlarını altüst edən mövqe sərgiləyib. Ancaq maraqlıdır ki, dünyanın aparıcı dövlətləri, beynəlxalq qurumları və xüsusən də vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk Qrupunun həmsədrləri Paşinyanın sırf avantürist sayılan mövqeyinə ciddi reaksiya vermirlər.

Qeyd edək ki, Paşinyanın son hərəkətlərinə rəsmi Bakıdan sərt etiraz gəlib. Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Ermənistan Baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndi şəhərində "Qarabağ Ermənistandır" deyə açıqlamasını qəti şəkildə rədd edirik: "Dağlıq Qarabağ Azərbaycandır! Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissəsidir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir. Azərbaycan dövləti və xalqı heç vaxt Ermənistanın törətdiyi hərbi işğal və qanlı etnik təmizləmə vasitəsilə ölkəmizin ərazi bütövlüyünün pozulmasına və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə imkan verməyəcək.

Ermənistan Baş naziri N.Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırış etməsi Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq ifşasıdır".

Dövlət rəsmisinin sözlərinə görə, Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk Qrupunun həmsədrlərinə hörmətsizlik və məsuliyyətsizlik kimi qiymətləndirilməlidir: "Ermənistan Baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır, təhqir edir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini məhv edir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk Qrupunun həmsədrləri cavab verməlidir.

Bu açıqlama ilə Ermənistan Baş naziri, həmçinin, özü-özünü inkar edir və bir müddət əvvəl Dağlıq Qarabağ adından guya danışa bilməməsi haqqında bəyanatının cəfəngiyyat və yalandan başqa bir şey olmadığını etiraf edir.

Bununla, Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır.

Ermənistan rəhbərliyini əmin etmək istərdik ki, Ermənistanın 2050-ci ildə inkişafına dair səsləndirilən məqsədlər utopiya olduğu kimi, Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistana birləşdirilməsi cəhdi də fantaziyadan başqa bir şey deyil.

Ermənistan tərəfi bu təxribatçı və destruktiv açıqlama ilə regionu yeni təhlükə və risqlərlə üzbəüz qoyur və ölkədaxili problemlərdən yayınmaq üçün qəsdən vəziyyəti gərginləşdirir.

Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

Heç kimin şübhəsi olmasın ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini, etnik təmizləməyə məruz qalmış vətəndaşlarının öz doğma torpaqlarına geri qayıtmasını və beynəlxalq hüququn aliliyini təmin edəcək".

Qarabağ Azadlıq Təşkilatının sədr Akif Nağı isə "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan hakimiyyəti Paşinyanın bu davranışları ilə bağlı daha sərt addımlar atmalıdır: "Bizim uzun illərdən bəri dediyimiz fikirlər, verdiyimiz proqnozlar özünü doğruldur. Dəfələrlə demişik ki, ermənilərlə aparılan sülh danışıqlarının heç bir faydası olan deyil. Buyurun, baxın, bu da sizə nəticə. Paşinyan özündən əvvəlki ölkə rəhbərlərinə, sözün əsl mənasında, "rəhmət oxutdurur". Deyirdilər ki, onlar əlində silah vuruşublar. Bu, demokratdır, nəsə gözləmək olar. Bu da sizə Qərbin, ABŞ-ın dəstəklədiyi demokrat siyasətçi. Açıq şəkildə işğalı dəstəklədi və birmənalı şəkildə dedi ki, həmin torpaqlar Ermənistanın əlində qalacaq. Bu cür konkret fikirləri o, ABŞ və Qərblə razılaşdırmadan deyə bilməz. Bundan bir çıxış yolu var. Azərbaycan silahı işə düşməlidir, ordumuz hərəkətə keçib düşməni yerinə qovmalıdır. Biz torpaqlarımızı yalnız bu yolla işğaldan azad edə bilərik. Hələ də ATƏT-in Minsk Qrupu həmsədrlərinin mövqeyi yoxdur. Biz hələ də onların vasitəçiliyinə inanmalıyıqmı? Bundan artıq rəng ola bilməz. Azərbaycan hakimiyyəti dərhal bəyanat verib Minsk Qrupu ilə təmasları dayandırmalıdır. Paşinyan ölkə başçısıdır, onun mövqeyində olan adamla hansı danışığı aparmaq olar? Biz sülhdən danışırıq, onlar isə açıq ərazi iddiasını ortaya qoyurlar. Avqustun 6-dan isə Qarabağda "7-ci ümumerməni oyunları" adlı yarışa start verilib. Maraqlıdır ki, bundan əvvəl həmin oyunların 6-sı Ermənistanda keçirilib. İndi, görün, nə qədər münbit şərait görürlər ki, artıq həmin oyunu Qarabağda keçirməyi məqbul sayırlar. Bununla oranı da Ermənistan ərazisi kimi qəbul etdiklərini ortaya qoymuş olurlar. Paşinyanın bu hərəkətinə yeganə cavabı yuxarıda qeyd etdiyim vasitələrlə vermək olar".

***Məhəmmədəli QƏRİBLİ***

# Ruhani ABŞ-a "İranla müharibə bütün müharibələrin anasıdır" mesajı verdi



**İran prezidenti Həsən Ruhani, İranın danışıqlar tərəfdarı olduğunu, lakin ABŞ-ın danışıqlar üçün bütün sanksiyaları ləğv etməli olduğunu deyib.**

Baki-xeber.com xəbər verir ki, Ruhani, ABŞ-ın İran lideri Ayətullah Əli Xamneyi və xarici işlər naziri Zərifə qarşı sanksiyalarla danışıqlar məsələsində səmimi olmadığını göstərdiyini söyləyib.

"Deyirlər ki, ilkin şərtlər olmadan danışıqlar aparmaq istəyirlər, amma ertəsi gün Böyük İnqilab rəhbərinə (Xamneyi) qarşı sanksiya tətbiq edirlər. Bəs necə danışıqlar aparaq? Danışıqları qəbul etsək, bununla bağlı son qərarı kim verəcək? Konstitusiyamızı bilirsiniz. Rəhbərin razılığı olmadan necə danışıq aparmaq olar? Sonra yenidən danışıqlar aparmaq istədiklərini deyirlər. Ardınca da xarici işlər nazirinə sanksiya tətbiq edirlər. Kiminlə danışıq aparacaqsınız? Danışıqlara cavabdeh xarici işlər naziridir. Bir gün danışıq aparmaq qərarına gəlsək, sizinlə o danışacaq" - Ruhani deyib.

Ruhani ABŞ-la bölgədəki gərginliyə də toxunub: "İranla barışıq bütün sülhün anasıdır, İranla müharibə də bütün müharibələrin anasıdır. Bölgədəki qoşunlarınız üçün təhlükəsizlik istəyirsiz… Təhlükəsizliyə qarşı təhlükəsizlik. Bizə zərər versəniz, özünüzün də təhlükəsizlikdə olduğunuzu düşünə bilməzsiniz. Sülhə qarşı sülh, neftə qarşı neft. Neft ixracımızın qarşısını alıb, başqalarına neft satmasına icazə verə bilməzsiniz".

Ruhani İngiltərə hökumətinə də mesaj göndərib: "Reallaşdıra bilməyəcəyiniz şeylərdən danışmayın. Cəbəllüttariq boğazını bizim üzümüzə bağlasanız, Hörmüz boğazı sizə açıq olmaz".

# Britaniya da Hörmüz boğazında ABŞ-ın anti-İran koalisiyasına qoşuldu



**Böyük Britaniya xarici işlər naziri ölkəsinin Hörmüz boğazında gəmiləri qorumaq üçün ABŞ-ın başçılıq etdiyi təhlükəsizlik missiyasına qoşulacağını bəyan edib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, nazir Dominik Raab bu addımın dəniz təhlükəsizliyini gücləndirəcəyini deyib

"Gərginliyi azaltmaq və nüvə sazişini davam etdirmək üçün İran və beynəlxalq ortaqlarımızla birlikdə işləməkdə qərarlıyıq" - britaniyalı nazir deyib.

Britaniyanın Müdafiə Nazirliyi bildirib ki, regiondakı mövcudluğunu artıracaq və Britaniyanın Kral dəniz piyadaları gəmiləri ABŞ gəmiləri ilə bərabər boğazdan keçən tankerləri müşayiət edəcək.

Britaniyanın bölgədə HMS Montrose və HMS Duncan HMS kimi dəniz piyadası qüvvələri var. HMS Montrose planlaşdırılan təmir işlərinə görə bu ayın sonunda regionu tərk etməlidir.

Qeyd edək ki, İranın bu boğazda tankerləri ələ keçirməsi Qərblə gərginlikləri artırıb. Vaşinqton bu yaxınlarda İraq və Yəmən sularının müdafiəsi, xüsusilə də körfəzin daşınma marşrutlarının qorunması üçün çoxmillətli hərbi koalisiya yaradılacağını bəyan edib. Bu ölçü İran gəmilərinin Britaniyanın yanacaq daşıyan tankerinin Hörmüz boğazından keçməsinə mane olmaq cəhdindən sonra götürülür. Daha sonra İran tərəfindən 23 heyətli tanker İranın İnqilab Keşikçiləri Korpusu tərəfindən Hörmüz boğazında ələ keçirilib.

Britaniya İranın Fars körfəzində fəaliyyət göstərən neft tankerinin ələ keçirilməsini "qərəzli addım"adlandırıb və Tehranın gəmini qəzaya uğradığına görə ələ keçirdiyinə dair izahatını rədd edib.

İranın İnqilab Keşikçiləri Korpusu internetdə Stena Impero tankerinə yaxın sürətli qayıqların yaxınlaşdığını göstərən video paylaşıb. Helikopterdən gəminin göyərtəsinə maskalı və silahlı qoşunlar enib. Almaniya İsveçə mənsub, Britaniya bayrağı altında idarə olunan Stena Imperonun sərbəst buraxılmasına çağırıb. Almaniya Xarici İşlər Nazirliyi İranın gəmini ələ keçirməsini "onsuz da gərgin vəziyyətin daha da ağırlaşdırılması" adlandırıb. Fransa da İranı gəmini buraxmağa çağırıb və bunun "körfəz regionunda gərginliyin azaldılmasını çətinləşdirdiyini" bildirir.

İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif ABŞ-ın ölkəsinə qarşı tətbiq etdiyi sanksiyaları "iqtisadi terrorizm" adlandırıb. "ABŞ hökuməti rəsmən bəyan edib ki, İran xalqı yemək istəyirsə, onlar siyasətlərini dəyişməlidir" - Zərif avqustun 5-də Tehranda keçirilən konfransdakı çıxışı zamanı deyib.

# ABŞ NATO-dan çıxmaq istəyir? - Alyansın baş katibindən açıqlama...



**NATO-nun baş katibi Yens Stoltenberq ABŞ-ın alyansdan ayrılmayacağına əmin olduğunu deyib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Stoltenberq Yeni Zelandiyaya səfəri zamanı jurnalistlərə açıqlamasında ABŞ-ın ittifaqdan ayrılmayacağına inandığını, təşkilat olaraq belə bir ehtimal görmədikləri üçün bu istiqamətdə hazırlıq görmədiklərini bildirib.

Qeyd edək ki, "New York Times" ABŞ Prezidenti Donald Trampın 2018-ci ildə yüksək rütbəli rəsmilərlə NATO-dan çıxmaq məsələsini bir neçə dəfə müzakirə etdiyini yazıb.

Ancaq ABŞ-ın NATO-da qalmasını hər iki tərəfin də dəstəklədiyini vurğulayan Stoltenberq ABŞ-ın Avropadakı hərbi gücünü artıraraq, əslində, bunu təsdiqlədiyini deyib.

Baş katib ABŞ Prezidenti Donald Trampın NATO-ya üzv digər ölkələrin birliyə daha çox töhfə vermək çağırışının da dəstək alacağını vurğulayıb.

**Qlobal miqyasda yenə ciddi narahatlıq predmetinə çevrilən məqamlardan biri də ABŞ-la Çin arasında kəskinləşən ticarət müharibəsidir. Dünyanın iki ən böyük iqtisadiyyatı arasında baş verənlərin digər ölkələrə təsirsiz ötüşməyəcəyi dəqiqdir. Məsələn, baş verənlər dünyada neftin qiymətinin 5 faiz ucuzlaşmasına səbəb olub.**

# Qızışan ABŞ - Çin valyuta müharibəsi Azərbaycanı da özünə çəkir...

Eyni zamanda bir çox ölkələrin milli valyutasında yenidən ucuzlaşma qeydə alınır. Bütün bunlar isə digər ölkələrə də öz təsirini göstərir. Elə bu fonda baş verənlər Azərbaycanda da diqqətlə izlənir, müvafiq tədbirlər görülür.

İndilikdə isə görünən budur ki, qarşıdakı dövr ərzində ABŞ və Çin ticarət müharibəsini daha da qızışdıracaq. Artıq Çin hökuməti ölkəyə Amerikanın kənd təsərrüfatı məhsullarının idxalının dayandırılmasına göstəriş verib. Şirkətlər artıq idxalı dayandırıblar və indi iki ölkənin ticarət danışıqlarının irəliləməsini gözləyir. Çin ABŞ-dan alınan soya və qarğıdalı kimi məhsulların dünya üzrə əsas idxalatçısıdır. Lakin 2018-ci ildə başlanan ticarət qarşıdurmasından sonra Pekin ABŞ-dan alınan kənd təsərrüfatı məhsullarına tətbiq edilən rüsumları artırıb və idxalın həcmini ixtisar edib. Pekinin bu dəfə ixracı dayandırmaq barədə qərarı isə ABŞ prezidenti Donald Trampın avqustun 1-də 300 milyard dollar dəyərində qiymətləndirilən Çin məhsullarının idxalına 10 faizlik rüsum tətbiq etmək niyyətində olduğunu açıqlamasından sonra verilib. "Maybank Kim Eng Research Pte" şirkətinin analitikləri bu xüsusda bildirir:"Çin ticarət müharibəsində daha yumşaq diplomatik strategiyadan imtina edir və ABŞ üçün "boks kisəsi" rolunu icra etmək istəmir. Trampın yeni ticarət rüsumu ilə bağlı təhdidləri vəziyyəti yalnız pisləşdirir və tammiqyaslı ticarət müharibəsinə aparır". Bununla yanaşı, Çin öz milli valyutasının məzənnəsinin son 10 ildə ən aşağı səviyyəsinə enməsinə icazə verib. Avqustun 5-də 2008-ci ildən bəri ilk dəfə olaraq bir dollar yeddi yuan psixoloji həddini aşaraq bir dollar üçün 7,02 yuana qədər yüksəlib. Bu metod Çinin dəfələrlə baş vurduğu və ABŞ-ı çox qıcıqlandıran üsullardan biridir, bu yolla Pekin öz ixracatçılarını stimullaşdırır və ölkədən kapital çıxışını əngəlləyir. Belə vəziyyət dolları ucuzlaşdırmağa hazırlaşan ABŞ üçün əlavə problem yaradır, eyni zamanda valyuta müharibəsini də stimullaşdırır. ABŞ-da hesab edirlər ki, Çin ixracatçılara kömək etmək üçün öz milli valyutasının məzənnəsini ədalətsiz şəkildə idarə edir.

Digər tərəfdən hesab edilir ki, qarşıdurma ciddi xarakter alarsa, Çin əlində olan və trilyon dollarlarla ölçülən ABŞ qiymətli kağızları vasitəsilə manevr etmək qərarına gəlsə, bunun fəsadlarını bütün dünya iqtisadiyyatı çəkə bilər. Onu da xatırladaq ki, ABŞ və Çin arasındakı ticarət əlaqələrinin növbəti kəskinləşməsi Vaşinqton və Pekin arasındakı ticarət danışıqlarının 12-ci raundundan sonra baş verir. Bundan əvvəl, 2019-cu ilin may ayında məsləhətləşmələrin uğursuz olduğu ortaya çıxan 11-ci raundundan sonra tərəflər qarşılıqlı ticarət rüsumlarını tətbiq etməyə başlayıb. ABŞ Çindən 200 milyard dollarlıq, Çin isə ABŞ-dan 60 milyard dollarlıq idxal mallarına rüsum tətbiq etməyə başlayıb.

İndilikdə Çinlə ABŞ arasında davam etməkdə olan ticarət müharibəsi, eləcə də ABŞ-ın Avropa İttifaqı, Meksika, Kanada kimi uzunillik ticarət tərəfdaşlarına qarşı atmış olduğu və yaxud planladığı addımlar dünya iqtisadiyyatı üçün ən böyük risqlərdən birini təşkil edir. Dünyanın böyük iqtisadiyyatına malik Hindistan da artıq ticarət müharibəsində fəal iştirakçılardan birinə çevrilir. Belə ki, Hindistan ABŞ-dan idxal edilən 28 mala əlavə gömrük vergisi tətbiq edib. Qeyd edək ki, bundan öncə Donald Tramp Hindistan və Türkiyənin güzəştli ticarət haqqından məhrum edilməsi barədə fərman imzalayıb. Tramp bildirib ki, Hindistan ABŞ-a bazarlara bərabər və uyğun şətrlərlə girişi təmin etməyə qarantiya verməyi bacarmayıb. Türkiyə isə inkişaf etməkdə olan ölkələr üçün qəbul olunmuş güzəştlərdən məhrum edilib. Xatırladaq ki, ABŞ və Hindistan gömrük dərəcələrini keçən ildən, Trampın ölkəyə idxal edilən aluminium və polada əlavə vergi tətbiq etməsi ilə dəyişməyə başlayıb. Hindistan ABŞ-dan idxal edilən 30 mal üçün gömrük vergisini artıracağını bəyan edib. Artıq bu xüsusda praktiki addımlar atılır. Beynəlxalq Valyuta Fondu genişlənən ticarət müharibəsi səbəbindən son hesabatında qlobal iqtisadi artım proqnozunu aşağı salıb.

Ekspertlərin fikrincə, ticarət müharibələri dünya miqyasında mal və məhsulların qiymət baxımından bahalaşması ilə nəticələnəcək. Eləcə də, bu fonda ticarət müharibəsi davam edəcəyi təqdirdə, Azərbaycana da idxal edilən məhsulların qiymətlərində artımlar müşahidə edilə bilər. Bu, həm texnologiya, həm avtomobil, həm də digər sənaye məhsulları ola bilər. Amma qlobal ticarət müharibəsi neftin dünya bazarında qiymətinin artımına gətirib çıxararsa, bu halda neft ölkəsi olan Azərbaycanda gəlirlərin çoxalması üçün yaxşı zəmin formalaşar. Yəni




həmin hal strateji və enerji məhsullarının da qiymətinin bahalaşmasına gətirəcəyi təqdirdə, nəticə etibarı ilə ölkəmiz qlobal ticarət müharibəsindən uğurla çıxa, öz gəlirlərini artırmaq imkanı qazanar. Əks halda Azərbaycan bunu qeyri-neft məhsullarını ixracı hesabına təmin etməli olacaq. Bütövlükdə qlobal ticarət müharibəsinin Azərbaycan üçün təhdid istiqamətində ciddi təsirləri olmayacaq. Çünki Azərbaycan iqtisadiyyatını elə formada qurub ki, dünyada baş verən proseslər ona minimal dərəcədə təsir göstərə bilsin. Real vəziyyət bu strategiyanın doğruluğunu təsdiq edir. Yəni enerji məhsullarının qiyməti qalxmasa belə, Azərbaycan yaranmış vəziyyətdə qeyri-neft məhsullarının artan ixracı hesabına yenə ticarət müharibəsindən ən az təsirlənən ölkələrdən biri olacaq. Xatırladaq ki, bundan əvvəlki ticarət və valyuta savaşları da Azərbaycana hansısa ciddi təsir göstərməmişdi. İndilikdə isə, Azərbaycan da daxil olmaqla, dünya ölkələri hesab edir ki, ABŞ və Çin ticarət müharibəsinin genişləndirilməsinə imkan verməmək üçün hər iki tərəfin kompromis axtarışına başlaması yaxın perspektivdə vəziyyətdən çıxışın, daha doğrusu, gərginliyin səngidilməsinin ən optimal yoludur.

***Nahid SALAYEV***

# Paşinyanın "2014-cü il gizli hesabat" oyunu Ermənistan cəmiyyətinin gözündə ifşa edildi - "Ay yoldaş, müəllifini göstər..."

**Ermənistanda son hakimiyyət dəyişikliyindən uzun müddət ötsə də, bu ölkədə müsbətə doğru dəyişən heç nə yoxdur. Əksinə, real vəziyyətin təhlili göstərir ki, düşmən ölkədə sosial-iqtisadi sahədə vəziyyət sürətlə pisləşir. Məhz bu da baş nazir Nikol Paşinyan iqtidarının uğursuzluğunun ən real göstəricilərindən biri sayılır.**

Eyni zamanda belə bəlli olur ki, Paşinyanın siyasəti Ermənistanın xarici iqtisadi asılılığını daha da artıracaq. Söhbət ondan gedir ki, Ermənistanın xarici dövlət borcu 2019-cu ilin ikinci yarısından sonra da artacaq.

Erməni mediası yazır ki, hökumət təxirəsalınmaz xərclər üçün vəsait cəlb edəcək. Ümumilikdə, 2019-ci ildə Ermənistan təxminən 490 milyon dollar xarici kredit alacaq. Bu vəsaitin 40%-i Rusiyadan cəlb ediləcək. Bundan başqa, Dünya Bankından suvarma sistemlərinin və elektrik xətlərinin yenilənməsi, yolların tikintisi, şəhərlərdə abadlıq işlərinin aparılması ilə bağlı kreditlər gəlməkdə davam edir. Bu il Ermənistan, həmçinin, ümumi büdcə dəstəyi üçün kredit götürməyə davam edəcək. Yeni büdcə idarəetmə siyasətinə əsasən, dövlət əməkhaqqı və pensiyaların ödənilməsi üçün müstəqil şəkildə qazanmalı və yalnız inkişaf layihələrinə kredit götürməlidir. Ancaq Ermənistan hökuməti büdcə xərclərini ödəmək üçün vəsait cəlb etməyə məcburdur. Çünki dövlət müstəqil şəkildə vəsait qazana bilmir. Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan bildirir ki, belə vəziyyətdə təkcə İcevan və Gümrü yox, ölkənin digər bölgələrində də çoxsaylı etiraz aksiyalarının başlanması qaçılmazdır: "Bunları ört-basdır etmək üçün Nikol Paşinyan Serj Sarkisyan dönəminə aid olan məxfi sənəd haqqında danışır, iflic vəziyyət düşdüklərini iddia edir. Ay yoldaş, bu 2014-cu ilin hansı gizli hesabatıdır? Bu, Serj Sarkisyanın adı altında çarəsizliyini ört-basdır etməyin növbəti cəhdidir. Hesabatın adını və müəlliflərini açıqla. Sən dövlət, dövlət institutları barədə nə bilirsən? Sənə deyim ki, bizim miras qoyduğumuz peşəkar sistem hesabına, sənin təyin etdiyin kəndirbaz rəhbərlərdən asılı olmayaraq, nazirlik, vilayət icra nümayəndəlikləri və qurumlar hələ infarkt olmayıblar. Bizim qoyub getdiyimiz ölkənin siyasi və iqtisadi potensialını sənin yoldaşların sərf edir, dövlət aparatını və ictimai həyatın sahələrini aşılanmaya məruz qoyursuz. Sənə xatırladım ki, biz sənə işləyən, işlək vəziyyətdə olan bütün yol xəritələri ilə maşın qoyub getmişik. Hərdən su qaynada bilər, təkər boşala bilər, işə düşməyə bilər, amma sən bizdən bütövlüklə işlək olan dövlət aparatını miras almısan. Sən və sənin komandan o qədər laqeydsiniz ki, dağıtmaqdan başqa heç bir şey bilmirsiniz. Bu avtomobili çalalara saldığınız, kənar daşlara vurduğunuz, içkili halda sürdüyünüz kifayət edər. Yadda saxla ki, bu avtomobildən bir dənədir və heç bir firmada, servisdə dəyişilmir. Həmçinin xatırladım ki, bu maşını sən miras almamısan, sən onu qaçırmısan. Gətir qoy yerinə, sürə bilmirsən. Unutma, sürücü eyni zamanda nəzarətçidir. Yoxsa xalq bir gün dayanacaqdan kənar dayanmağı tələb edəcək".



Məsələ ilə bağlı "1in.am" portalı da yazır ki, ölkədə vəziyyət sürətlə uçuruma doğru gedir. Portal yazır ki, sosial-iqtisadi sahədə pisləşən vəziyyət Ermənistan üçün ciddi problemə səbəb olacaq: "Ermənistanda mövcud problemlərin həll edilməsi fikirləşdikdə bunun təsadüfi olmadığı aşkara çıxır. Bir an insanlar ümid edirdi ki, Nikol Paşinyan hakimiyyətə gəlməklə onların qayğılarını qarşılayaraq həll edəcək. Paşinyan gəldi, lakin problemlər insanların qapılarını döyməkdə davam edir. Vaxt keçir, ölkədə isə sosial vəziyyət dəyişmir. Nikol Paşinyan əvvəlki şəxs deyil. İndi o, onu hakimiyyətə gətirən insanları belə dinləmək istəmir. İndi hər bir insan öz qayğısının özü həll etməlidir. Artıq bu, hökumətin problemi deyil. İndi baş nazir vəzifəsində olan Nikol Paşinyan Ermənistan vətəndaşı ilə əvvəlkilər kimi minnət qoyaraq danışır. Artıq ölkədə sosial vəziyyətin pis olmasına görə günahkar hökumət və ya siyasi hakimiyyət yox, işləmək istəməyən və öz qayğılarını qarşılamayan vətəndaşlardır. Hökumətin iddiasından belə məlum olur ki, artıq Ermənistanda iş yerləri problemi yoxdur, lakin insanlar işləmək istəmir, iş var, işləyən yoxdur. Belə təsəvvür yaranır ki, hakimiyyət dəyişikliyindən sonra Ermənistanda o qədər iş yeri yaradılıb ki, bu artıq işləyənlərə kifayət etmir. Aydındır ki, bu belə deyil. Əksinə, bu müddət ərzində Ermənistanda açılanlarla müqayisədə daha çox iş yeri bağlanıb. Bunların bəziləri hakimiyyətin günahı ucbatından baş verib. İndi insanlar iş olmamasına görə şikayət edirsə, bu o demək deyil ki, iş var, ancaq onlar işləmək istəmir. İnsanların işləməsi və müstəqil öz qayğılarını qarşılaması üçün hakimiyyətin bütün şəraiti təmin etdiyi təəssüratını yaratmaq lazım deyil. Bu vəziyyətdə görəsən baş nazir hansı iş barədə danışır və bu iş yerləri haradadır?! İş var demək rahatdır, insanlar isə işləmək istəmir. Bəs niyə rəsmi statistika 20% işsizlikdən danışır? 200 mindən artıq insanın iş yeri yoxdur. Bu, iş yerləri tökülüb qalıb, insanlar isə işləmək istəmir demək deyil. İş yerləri yoxdur, hamı bilir ki, Ermənistanda iş və ya layiqli ödənişi olan iş yeri yoxdur. 2-3 min vakant iş yerləri həmişə olub, bu yenilik deyil. Lakin bu iş yerlərinin əmək haqları olduqca aşağıdır, yaxud sırf ixtisas işləridir. Əgər iş yerləri tökülüb qalıb və insanlar işləmək istəmirsə, o zaman xaricdə niyə işləyirlər? Məgər ailədən və yaxınlarından uzaq qalmaqla, müxtəlif problemlərlə rastlaşaraq çörəkpulu qazanmaq daxildə işləməkdən yaxşıdır? Buna bir səbəb olmalıdır, ya yox? Kimsə 50-60 və ya 100 min dramla ailə saxlamağı düşünürsə, çox böyük səhv edir. Bəlkə hökumət hakimiyyət dəyişikliyindən keçən bu 15 ay ərzində neçə müəssisə açıldığını və neçə iş yerləri yaradıldığını deyə bilər? Yoxsa iş yeri ilə təmin etmək hökumətin deyil, artıq vətəndaşın işidir?

Hansı mikrobiznesdən söhbət gedir? Gələn ildən vergilərdən azad etməyi düşünən hökumət hansı mikrobiznesdən danışır? İki illik hakimiyyət dəyişikliyinin nəticəsinin və bu mikrobiznesin əhaliyə nə verəcəyi hələ məlum deyil. Keçmişdə də bu cür mikrobiznes bir az çox, ya da az güzəştlərə malik idi. Bununla ciddi heç bir şey dəyişmir. Kiçik bizneslə məşğul olmaq üçün fövqəladə şərait təmin edilməsi haqqında danışmaq sadəlövhlükdür. Aydındır ki, müxtəlif problemlərə Paşinyanın bugünkü münasibəti baş nazir olanadək olan münasibətlərindən fərqlənir. Hökumətin insanların problemlərini həll etmək üçün özündən asılı olan hər şeyi etdiyi nə qədər deyilsə də, insanlar yalnız eşitmir, eyni zamanda çevrədə baş verənləri görür. Belə ki, indi artıq insanları boş sözlərlə qidalandırmaq çətin olacaq. Cəmiyyət bu hakimiyyətə öz qayğılarını tez unutmağa yox, onları həll etmək üçün mandat verib. Bu gün isə həmin problemlərin həlli görünmür. Hökumət öz sosial öhdəliyi barədə unudub və pis yaşamasına görə günahı cəmiyyətin üstünə atmaq istəyir". O da qeyd olunur ki, Paşinyanın büdcə gəlirlərinin artımından və bunların sosial vəziyyəti pis olan erməni cəmiyyətinin vəziyyətinin yaxşılaşdırılmasına yönləndirilməsindən danışması aldatmadır: "Artıq erməni xalqı yaxşı dərk edir ki, Paşinyan əvvəki hakimiyyətdən də pisdir və artıq onları alçaldır".

**Hesab edilir ki, məhz bu şəraitdə Ermənistanda sosial iğtişaşların dərinləşməsi qaçılmazdır.**

*Tahir TAĞIYEV*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Xankəndidə Paşinyanın sərsəm bəyanatlarına Ermənistanın özündə etirazlar başladı

**Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidə meydanda çıxışı zamanı səsləndirdiyi son fikirlər İrəvanın Dağlıq Qarabağ münaqişəsini hələ də dinc müstəvidə həll etməkdə maraqlı tərəf kimi çıxış etmədiyini göstərir. Burada Paşinyan "Qarabağ elə Ermənistandır" şüarını səsləndirməklə həm sülh fəaliyyətinin üzərindən xətt çəkdyini, həm beynəlxalq hüquqa qarşı çıxdığını, həm də Ermənistana ondan əvvəl rəhbərlik edən Levon Ter-Petrosyan, Robert Köçəryan və Serj Sarkisyandan daha səriştəsiz olduğunu meydana qoymuş oldu.**

Eyni zamanda baş verənlər onu göstərir ki, yaranmış vəziyyətdə İrəvan Bakıya konflikti güc tətbiq etməklə çözməkdən başqa seçim imkanı da qoymur. Hadisələrin məhz bu səpkidə inkişaf edə biləcəyi Ermənistanın özündə də dərk edilir və müəyyən qüvvələr tərəfindən böyük ajiotajla qarşılanır. Məsələn, Ermənistan Kommunist Partiyasının yaydığı bəyanatda bildirilir ki, Nikol Paşinyanın Qarabağa səfərindən sonra vəziyyətin getdikcə gərginləşməsi Ermənistanın əleyhinə işləyəcək amil olacaq: "Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış gərginlik Ermənistanı narahat etməlidir. Nikol Paşinyanın Qarabağa səfərindən sonra vəziyyətin getdikcə Ermənistanın əleyhinə dəyişməsi qaçılmazdır. Ermənistan Kommunist Partiyası hesab edir ki, Ermənistan rəhbərliyi proseslərin bu səpkidə inkişafının qarşısını almaq üçün Rusiya və İranla hərəkət etməlidir". Amma Paşinyanın real fəaliyyəti Rusiyanın, ABŞ-ın və digər ölkələrin də Ermənistandan üz döndərdyini meydana qoyur. Rus politoloq Fyodor Lukyanov qeyd edir ki, Moskva artıq İrəvana münasibətdə fərqli siyasət yürüdür:"Ermənistanda hakimiyyət dəyişikliyinin hansı şəraitdə baş verməsindən asılı olmayaraq, bu, Rusiyada bir çoxlarında xoşagəlməz xatırlatmalara səbəb olub və postsovet ölkələrindən bəzilərində baş verən hadisələri yada salıb. Belə ki, həmin ölkələrdə "rəngli inqilab" adı alan ənənəvi hakimiyyət dəyişiklikləri həmişə Rusiya ilə münasibətlərdə böhrana səbəb olub. Məhz bu səbəbdən Ermənistanda baş verənlər müəyyən gərginliklərə gətirib çıxardı. Rusiya prezidenti hələ çox illər öncə deyirdi ki, özü mühafizəkardır. Rusiyada üstünlük təşkil edən ideologiya isə mühafizəkarlıqdır. Rusiya rəhbərliyinin anlayışına görə, mühafizəkarlıq istənilən inqilabla ziddiyyət təşkil edir. Ona görə də, məhz bu kontekst münasibətlərinin nizamlanması üçün əlverişli deyil. Rusiya bu fonda Ermənistana əvvəlki münasibət bəsləmir və aydındır ki, bu yanaşma Qarabağ məsələsində də özünü büruzə verməlidir".

Rusiyanın "rosbalt.ru" portalı isə yazır ki, təkcə Moskva yox, Vaşinqton da İrəvana dirsək göstərir və bu şəraitdə Ermənistanın Qarabağ məsələsində Bakı və beynəlxalq ictimaiyyəti qane etməyən mövqe sərgiləməsi heç də ermənilərin lehinə deyil. O da vurğulanır ki, Moskva və Vaşinqtonun mövqeyi Ermənistanın durumunu daha da ağırlaşdırır: "Amerikalılar Paşinyanın anlaşılmaz xarici siyasətinə görə İrəvanın "pulunu kəsib", Bakı ilə vəziyyət fərqlidir. Əlbəttə, ABŞ-ın yardımı, demək olar, çox deyil, amma məsələ prinsipdədir. Hələlik isə real olan budur ki, Ermənistan pərəstiş etdiyi, böyük ümidlər bəslədiyi ABŞ-dan kədərli xəbər alıb. Bəlli olub ki, "dünya hegemonu"nun "Foreign Assistance" xətti üzrə 2020-ci ildə respublikaya xarici yardımı cəmi 6,75 milyon dollar olacaq. Düzdür, bu il də Ermənistana əliaçıqlıq etməyiblər - 6,4 milyon dollar ayrılıb, amma bu iki məbləği Ermənistanın ABŞ-dan, təxminən, 26,5 milyon dollar aldığı 2017-ci illə tutuşduranda sarsıdıcı təzad alınır. Bu, 2011-ci illə müqayisədə gözə daha çox girir - o zaman Amerika yardımının həcmi "yaşıl" valyutada 45 milyonu bir qədər aşırdı. Ermənistan gələn il əldə edilən vəsaitdən 100 minini təhsil sahəsində mənimsəməli və 800 minini iqtisadiyyatın inkişafına yönəltməlidir. Göründüyü kimi, amerikalılar üçün yoxsul Ermənistandakı bu sahə prioritet deyil: onlar üçün acqarına "demokratiya" və insan haqlarına dəstək" xeyli önəmlidir, onlar buna 3 milyon dollardan çox verirlər. İkinci yerdə münaqişələrin tənzimlənməsi də daxil olmaqla təhlükəsizlikdir. Yeri gəlmişkən, məlumat yayılıb ki, ABŞ hər il əraziləri minasızlaşdırmaq üçün nəzərdə tutulan, demək olar, beş milyon dollar dəstək verdiyi tanınmamış "Dağlıq Qarabağ Respublikasına" əvvəlki həcmdə yatırım qoymağa daha meylli deyil.

Ümumiyyətlə, Ermənistan Ştatlardan bərk inciyib və indi respublikada fal açırlar ki, ABŞ-ın "düşmən" Azərbaycana maliyyə yardımını 100 milyon dollara çatdırmaq vədi fonunda o niyə belə gözdən düşüb. Bu vəsait təhlükəsizlik məsələlərinin həlli üçün nəzərdə tutulub. Ermənistan ekspertləri iddia edirlər ki, ABŞ öz "əliaçıqlığı" ilə Azərbaycana maliyyə yardımını məhdudlaşdırmaqda özünün qəbul etdiyi düzəlişi pozur. Bunu müəyyən qədər erməni lobbiçilərinin Konqres və Ağ Evdəki passivliyinin ayağına yazırlar. Bundan başqa, ABŞ prezidenti Donald Trampın ölkəsi üçün car çəkdiyi xarici sahədə maliyyə "zahidliyi" prinsipini də hesabdan atmırlar. Amma onda niyə bəziləri amerikalıların yardımına layiq görülür, başqaları isə yox? Bəlkə, ola bilsin, inqilabçı baş nazir Nikol Paşinyan onlara xoş gəlmir və məsələ "şəxsi" xarakter daşıyır? Axı Paşinyan elə hey ABŞ-ın tərifini göylərə çıxardır və az qala, ona sevgi və sədaqət andı içir! And içməyinə içir, amma Ermənistan bununla yanaşı, hesab edildiyi kimi, Rusiya ilə birgə ABŞ-a antoqonist bloklarda durur: hərbi - KTMT və iqtisadi - AİB. Respublika sərhədlərinin bir qismini Rusiya sərhədçiləri qoruyur və Ermənistan ərazisində Rusiyanın hərbi bazası mənzillənib. Və Ermənistan arabir Rusiyanı söysə də, ona o cümlədən beynəlxalq arenada badalaq vursa da və ümumiyyətlə "hüquqi vəz etsə" də, Rusiyanın orbitindən qeyb olmağa risq eləmir. Deməli, Vaşinqtonla səsləşən xarici siyasət aparmır. Bu azmış kimi, Ermənistan Rusiya ilə birgə Suriyada humanitar durumu yaxşılaşdırmaq üzərində işləməyə "cürət edib" - ora 85 istehkamçı və həkim göndərib. Paşinyanın izah etdiyi kimi, ölkəsi humanitar missiya ilə Suriya xalqına "tarixi borcu"nu qaytarır, çünki o, "soyqırım"dan qurtulan ermənilərə sığınacaq verib. Diaspora məsələləri üzrə komissar Zare Sinanyan Ermənistanın Suriyada məhz Rusiya ilə əməkdaşlığında Amerika yardımının cüziliyi kontekstində israr edir. Onun "Sputnik"lə söhbətdə dediyi kimi, erməni icması ABŞ-da mütəşəkkildir və balanslaşdırılmış siyasət yürüdülməsi üçün Dövlət Departamentinə və ABŞ prezidentinə hər cür təsir etməyə çalışır. "Amma ABŞ Ermənistan və Rusiyanın Suriyadakı əməkdaşlığını çox ağır qəbul edir ki, bu da əsassızdır".

Sinanyanın sözlərinə görə, mütəşəkkil erməni icmasının qalıqlarını yalnız Rusiya, İran və başqa ölkələrin səyləri sayəsində xilas etmək mümkün olub. O yada salıb ki, Ermənistanın Suriyada iştirakı ancaq humanitar xarakter daşıyır və dinc əhalini xilas etməyə yardım edir. Buradaca qeyd edək ki, Suriyada münaqişə başlanana qədər erməni icması əsas qismi - 60 min nəfər - Hələbdə yaşayan 110 min nəfər idi. 90 min erməni savaş nəticəsində Suriyanı tərk edib, Ermənistan Suriyanın 22 mindən çox vətəndaşına sığınacaq verərək Suriyadan qəbul edilən qaçqınların sayına görə Avropada üçüncü dövlət olub. Amma görünür, bu, ABŞ üçün arqument deyil. Və yardımın həcmindən göründüyü kimi, Vaşinqton üçün Ermənistandansa Azərbaycan daha çox maraq kəsb edir - o cümlədən Cənubi Qafqazda və Xəzər dənizinin sahillərində möhkəmlənmək səyləri kontekstində.

Yüz milyon dollar Azərbaycan üçün heç nəyi bildirir, bölgədə hərbi güclərin balansı baxımından bir önəmi yoxdur, Azərbaycan Ermənistanla savaş üçün yetərincə güclü orduya malikdir. Bundan başqa, ABŞ-ın İrana hücumu halında Azərbaycan ona hərbi dəstək vəd etməyib və antiiran əməliyyat meydanı olmayacaq. Çox ehtimal ki, Vaşinqton Amerika hərbçilərinin Əfqanıstan ərazisindən qismən və ya tam çıxarmağın Azərbaycan üzərindən təhlükəsiz olmasında maraqlıdır (belə bir marşrut isə nəzərdən keçirilir). Təhlükəsizliyin təmini isə xərc tələb edir.

Lakin hətta Amerika qoşunlarının Əfqanıstandan çıxarılması olmayacaqsa da, fərq etməz, ABŞ Azərbaycanı ələ almağa və özünə sarı döndərməyə çalışacaq, çünki bu ölkədə rejimi dəyişməyə ehtiyatlı səylər heç bir nəticə verməyib. Və xüsusən də amerikalıların ayırdığı pul Ermənistan üçün, planlaşdırıldığı kimi, "demokratiyaya və insan haqlarına dəstək"də heç bir rol oynaya bilmir: böyük inam payı ilə Qərbyönlü qeyri-hökumət təşkilatları şəbəkəsi ilə. Azərbaycan isə belə "hoqqaları" alqışlamır. Hər necə olur-olsun, Ermənistanın açıqca gözdən düşməsi ondan xəbər verir ki, ABŞ bu respublikanın xarici siyasətindən narazıdır və onu Rusiyadan və "Rusiya məsələləri"ndən aralanmağa itələyir. Lakin İrəvanda Amerika yardımının artacağına ümidlərini yenə də itirmirlər. Amma bunun üçün sübut etmək gərəkdir ki, Ermənistan Vaşinqtonun sözdə deyil, işdə "etibarlı tərəfdaşıdır". Bəs indiki geopolitik durumda bunu necə etməli? Heç cür. Sadəcə bununla barışmalı ki, indiki mərhələdə Ermənistanın salamat qalmağına yeganə yol - hərfi mənada - Rusiyadan keçir. Amerikalıların yardımının sıfırlaşması üçün bu yetərlidir. Amma Ermənistan yenə də onun "başqa zərflər" hesabına 40 milyon dollara qədər kəskin artımına ümid edir. Bəs Ermənistan bunun üçün nə etməlidir? Görünür, Rusiya, KTMT, AİB-lə münasibətləri qırmalı və özünü məhv etməlidir. Paşinyanın seçim üçün nəyisə var". O da qeyd edilir ki, məhz bu şəraitdə Vaşinqtonun dəstəyindən məhrum olan Ermənistanın güclü Azərbaycan qarşısında tab gətirməsi daha müşkül olacaq. Yuxarıda qeyd olunduğu kimi isə, baş verənlər fonunda Rusiya da Ermənistandan üz döndərməkdədir. Məhz bu durumda Paşinyanın Xankəndidə sərsəmləməsi və Azərbaycanı savaşa təhrik etməsi Ermənistan üçün çox baha başa gələ bilər.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Dünya Bankının 2019-cu il üçün açıqladığı "South Caucasus in Motion" adlı analizində ölkələrin yoxsulluq səviyyəsi əks olunub. Sözügedən sənəddə hökumətin uzun illərdir Azərbaycanda elan etdiyi göstəricilərlə ciddi uyğunsuzluq var.**

# Dünya Bankından Azərbaycanda yoxsulluq səviyyəsi ilə bağlı uyğunsuz rəqəmlər...




Dünya Bankının Cənubi Qafqaz ölkələrinin iqtisadiyyatı ilə bağlı apardığı təhlilə əsasən, Azərbaycanda yoxsulluq səviyyəsi hökumətin açıqladığı rəsmi rəqəmlərdən bir neçə dəfə yüksəkdir.

"Cənubi Qafqaz hərəkətdə" adlı analitik xülasədə Azərbaycanda 2015-ci ildə - milli valyutanın sərbəst dönərli valyutalara nisbətdə iki dəfə ucuzlaşdığı ildə regionlarda yoxsulluğun səviyyəsi üzrə göstəricilər əks olunub. Sənəddə bildirilir ki, ən aşağı yoxsulluq səviyyəsi Bakıda - 16 faiz, ən yüksək isə Gəncə-Qazax iqtisadi rayonunda - 33 faiz, digər regionlar üzrə 20-30 faiz intervalında dəyişir.

Hesabata görə, ölkə əhalisinin əhəmiyyətli hissəsi Bakı, Gəncə-Qazax və Aran iqtisadi rayonlarında yaşadığı üçün, bütün yoxsulların da 60 faizi bu 3 ərazinin payına düşür.

Başqa maraqlı bir fakt: həmin dövrdə ölkə əhalisinin 57 faizi yüksək səviyyədə yoxsulluq risqi ilə üzləşə biləcək "həssas qrup"a daxil olublar. Bankın "həssas qrup" anlayışı belə izah edilib: gündəlik qazancı 2005-ci ilin alıcılıq qabiliyyəti pariteti ilə 5 USD-dən çox, 10 USD-dən az gəlir səviyyəsinə malik əhali. Bütün regionlar üzrə kənd və şəhər yerlərində təhsil səviyyəsinə dair də maraqlı faktlar var. Eləcə də Cənubi Qafqazın 2 ölkəsi ilə oxşar göstəriciləri müqayisə üçün rəqəmlər əks olunub.

Dünya Bankı tərəfindən açıqlanan bu statistikanı nə dərəcədə əsaslı saymaq olar?

İqtisadçı Elşən Əliyev qezetimizə bildirdi ki, bir çox hallarda beynəlxalq maliyyə qurumlarının təhlilləri ilə Azərbaycanın real iqtisadi göstəriciləri arasında fərq nəzərə çarpır: "Bilirsiniz ki, yoxsulluğun aradan qaldırılması Azərbaycan hakimiyyətinin qarşısında duran prioritet öhdəliklərdən sayılır. Bu istiqamətdə irəliləyişin əldə olunması bütün parametrlər üzrə özünü göstərir. Konkret hansısa ili göstərib, ondan nəticə çıxarmaqla bu sahə barədə aydın təsəvvür yaratmaq olmaz.

Rəsmi göstəricilər belədir ki, 2002-2015-ci illər müddətində yoxsulluğun səviyyəsi ildən-ilə aşağı düşərək 46,7% göstəricisindən 4,9%-ə düşüb.

2016-cı ildə əvvəlki ilə nisbətən ÜDM-in real həcminin azalması, inflyasiyanın səviyyəsinin yüksəlməsi yoxsulluq səviyyəsinə düşən əhalinin sayını 1% artırıb və bu göstərici 5,9% olub.

2017-ci il yanvarın 1-nə muzdla işləyənlərin sayı 1514,0 min nəfər təşkil edib. İqtisadiyyatın neft sektorunda 34,1 min nəfər, qeyri-neft sektorunda isə 1479,9 min nəfər çalışıb.

Azərbaycanda artıq 2015-ci ildə yoxsulluğun göstəricisi 5 faizdən aşağı düşmüşdü. Yəni 49 faizdən 5 faizə düşməklə, Azərbaycan dünyada yoxsulluq göstəricisi ən az olan 29 dövlətdən birinə çevrilib. Bu çox böyük göstəricidir. Məhz bu məqama görə həmin qurumlar 2015-ci ilə bağlı daha mox mübahisə doğura biləcək rəqəmlər təqdim edirlər.

Əksər hallarda bu cür qurumlar məlumatları ölkə daxilində əməkdaşlıq etdikləri QHT və müstəqil ekspertlərdən alırlar. Göründüyü kimi, həmin göstəricilərlə rəsmi rəqəmlər arasında kəskin fərq müşahidə edilir. Azərbaycanda yoxsulluğun aşağı düşdüyünü şərtləndirən başqa faktorlar da var. Son bir ildə təqdim edilən iki sosial paketdən görünür ki, artıq dövlət yalnız yoxsul təbəqənin maddi vəziyyətini yaxşılaşdırmağı hədəfləmir. Bütün təbəqələrə şamil olunan güzəşt və artımlar imkan verəcək ki, Azərbaycan əhalisi özünə yığım kapitalı toplasın".

*Məhəmmədəli* **QƏRİBLİ**

---

**2019-cu il Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan mühüm tədbirlər ili kimi yadda qalacaq. Bu il Prezident İlham Əliyev tərəfindən əməkhaqqı, pensiya, müavinət, təqaüdlərin artırılması, problemli kreditlərlə bağlı olan məsələnin həlli məqsədilə çoxsaylı sərəncam və fərman imzalandı. İmzalanan sənədlər əhalinin rifah vəziyyətinin yaxşılaşdırılmasına önəmli töhfə oldu.**

# 1,3 milyon nəfər stipendiya və təqaüd alanların həyatı dəyişir

## *Fatimə Hacıbəyli: "Müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər, ümumilikdə, 1,3 milyon insanı əhatə etdi"*



Qeyd etdiyimiz kimi, Prezidentin sərəncamı ilə bu il tələbə təqaüdləri ilə yanaşı, müavinətlərin həcmi də artıb. Məlumat üçün bildirək ki, 300 min əlilliyi olan şəxs, 500 min məcburi köçkün, 100 mindən artıq tələbəni, ümumilikdə, 1.3 milyon insanın gəliri artıb. Bu artım həm həmin kateqoriyaya aid olunan şəxsin, eyni zamanda onun ailəsinin sosial durumunun inkişaf etməsinə səbəb olacaq.

"Vəfa" Sosial İctimai Problemlərin Həllinə Dəstək İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son illər Prezident İlham Əliyev əhalinin sosial durumunun yüksəlməsi məqsədilə sərəncamlar imzalayıb: "Həmin sərəncamlarla qayğıya ehtiyacı olan təbəqələr üçün müəyyən olunan müavinətlərin həcmi artıb. Məlumdur ki, bu ilin fevral ayında cənab İlham Əliyev təxminən 3 milyon vətəndaşı əhatə edən sosial paketi elan etdi. Bu paketdə minimum əməkhaqqının, əmək pensiyalarının minimum məbləğinin, sosial müavinətlərin, tələbə, magistr və doktorantlara verilən təqaüdlərin, məcburi köçkünlərə verilən müavinətlərin həcminin artırılması qeyd olunurdu. Bəllidir ki, mütəmadi olaraq maaşların, pensiyaların, müavinətlərin və təqaüdlərin artırılması ilə bağlı xəbərlər eşidirik. Bu çox sevindirici haldır. Hər bir Azərbaycan vətəndaşı sosial məsələlərin həllində dövlətin rolunu yüksək qiymətləndirir".

*"Müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə etdi və onların gəlirləri əhəmiyyətli şəkildə artırıldı"*

Birlik sədri onu da vurğuladı ki, müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər, ümumilikdə, 1,3 milyon insanı əhatə etdi və bunlardan 300 mindən artığı məhz əlilliyi olan şəxslər, 500 minə qədəri məcburi köçkün, 100 mindən artığı tələbə və gənclərdir. Ümumilikdə, bu müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə etdi və onların gəlirləri əhəmiyyətli şəkildə artırıldı.

*Günel* **CƏLİLOVA**

# 6 ayın sosial müdafiə tədbirlərinin ölçüyə sığışmayan miqyası...

***Rüfət Quliyev:** ”Əhalinin gəlirinin artırılması, maddi rifahının yaxşılaşdırılması dövlətin öncül qayğılarından biridir və dövlətimiz də buna hər zaman önəm verir”*

**Hələ ötən ilin ikinci yarısında Prezident İlham Əliyev bəyan etmişdi ki, növbəti dövr Azərbaycanda sosial sahədə ciddi islahatlarla yadda qalacaq. Bunu o, həyata keçirilən iqtisadi siyasət və islahatlar çərçivəsində iqtisadiyyat, infrastruktur sahələrində nəzərdə tutulan böyük layihələrin başa çatması nəticəsində artan gəlirlərin əhalinin sosial rifahını yüksəltmək istiqamətinə yönəldilməsinə imkan verməsi ilə əsaslandırıb.**

Qeyd edək ki, cari il ərzində dövlət başçısının imzaladığı fərman və sərəncamların mühüm bir hissəsi məhz əhalinin sosial müdafiəsinin əhəmiyyətli şəkildə gücləndirilməsi, sosial sahə üzrə müasir, şəffaf, çevik, optimal idarəçilik və xidmət mexanizmlərinin formalaşması məramına istiqamətlənib. Bu mühüm məqam isə Prezident İlham Əliyevin siyasi fəaliyyətində məhz insan, vətəndaş amilinin, ölkədə sosial rifah və sabitliyin təminatının əsas yer tutduğunu bir daha təsdiq edir.

Məlumat üçün bildirək ki, 2019-cu il 28 yanvar tarixli Fərmanla birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsi genişləndi. Elə həmin gün Prezident İlham Əliyev şəhid ailələri ilə görüş keçirdi və onlara yeni mənzillərin təqdim olunmasında iştirak etdi. Mənzillərin təqdim olunması tədbirindən bir gün sonra dövlət başçısı Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün əlavə olaraq 20 milyon manat vəsait ayrılmasına dair sərəncam imzaladı.

Şəhid ailələri ilə görüşdə onlara diqqət və qayğı göstərilməsinin dövlətin fəaliyyətində daim prioritet təşkil etdiyini vurğulayan Prezident İlham Əliyev bundan iki gün sonra imzaladığı 30 yanvar 2019-cu il tarixli Fərmanla şəhid ailəsi üçün Prezidentin aylıq təqaüdünün 242 manatdan 300 manata, eləcə də Əfqanıstanda şəhid olanların ailələri üçün Prezident təqaüdünün 220 manatdan 300 manata çatdırılması ilə bu prosesi davam etdirdi.

Prezident İlham Əliyevin sosial islahatlar paketinin daha bir uğurlu nəticəsi 8 fevral 2019-cu il tarixli Sərəncamla ölkədə minimum əməkhaqqının 2019-cu il martın 1-dən orta hesabla 40 faiz artırılaraq 180 manata çatdırılması oldu. 600 min (o cümlədən, dövlət sektoru üzrə 450 min, özəl sektor üzrə 150 min) işçinin rifahına ciddi dəstək olan bu artım üçün illik 400 milyon manat əlavə vəsait ayrılacaq. Minimum əməkhaqqının yaşayış minimumuna çatdırılmasına imkan verən bu artım, eyni zamanda, qeyri-rəsmi əmək münasibətlərinin də leqallaşdırılmasına öz müsbət təsirini göstərir.

Məlumdur ki, ölkə başçısı təhsilin inkişafına xüsusi diqqət yetirir. Prezident İ.Əliyevin fevralın 14-də imzaladığı "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında", "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" bir fərman və iki sərəncam sayəsində təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Bu sənədlər xeyli gəncin təqaüdünün artırılması və yaxud ailə vəziyyətinin yaxşılaşdırılmasına səbəb oldu.

2019-cu il 26 fevral tarixli Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırılaraq 60 manata çatdırılmaqla, bu müavinəti alan 500 mindən çox məcburi köçkünün rifahına mühüm dəstək verildi.



*”2019-cu ilin əvvəlindən bu günə kimi əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən inqilabi sosial islahatlar həyata keçirilir”*

Danılmaz faktdır ki, son zamanlar əhalini narahat edən əsas məsələlərdən biri də problemli kreditlər idi. Məlumdur ki, 2015-ci ildə manatın məzənnəsinin xarici valyutaya nisbətən dəyişməsindən banklardan xarici valyuta ilə kredit götürənlər həmin məbləği geri qaytarmaqda çətinlik çəkdilər. Nəticədə çoxlu sayda vətəndaş bankdan götürdüyü krediti geri qaytarmaqda sıxıntı çəkdiyi üçün, problemli kreditlərin həcmi günügündən artdı. Bu problemin birdəfəlik həlli məqsədilə Prezident İlham Əliyevin 28 fevral 2019-cu il tarixdə imzaladığı Fərman sayəsində devalvasiyanın təsirləri aradan qalxdı. Həmin fərmana əsasən, ölkənin sosial həyatı üçün olduqca mühüm olan, 800 mindən artıq insanın problemli kredit narahatlığı aradan qaldırıldı.

Həmçinin, ölkə başçısının 19 fevral 2019-cu il tarixdə imzaladığı Fərman isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafelərinin təmin olunmasına xidmət etdi.

Bəllidir ki, ilin əvvəlində imzalanan sərəncamla minimum əməkhaqqı 130 manatdan 180 manata yüksəlmişdi. Ancaq iyun ayında imzalanan növbəti sərəncama əsasən, minumum əməkhaqqı sentyabr ayının birindən artıq 250 manat olacaq. Bundan başqa, Prezidentin həmin ərəfədə imzaladığı sərəncamlarla dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatların işçilərinin, hərbi qulluqçuların, diaqnostik qiymətləndirmədən keçən müəllimlərin maaşları və bir sıra digər təşkilatların işçilərinin əməkhaqqı 20, 40 və 50 faiz artırılıb. Bu, faktiki olaraq, milyonlarla vətəndaşımızın gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq.

Təkcə cari ilin 6 ayı ərzində Prezident İ.Əliyev əhalinin sosial təminatının yaxşılaşması məqsədilə silsilə fərman və sərəncamlar imzalayıb. İmzalanan hər bir sənəd əhalinin sosil vəziyyətinin inkişaf etməsinə səbəb olub.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Rüfət Quliyev bizimlə söhbətində qeyd etdi ki, 2019-cu ilin əvvəlindən bu günə kimi əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən inqilabi sosial islahatlar həyata keçirilir: "Sosial islahatlar əsasən müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin artırılmasıdır. Həmçinin, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları da artırılıb. Məlumdur ki, ilin əvvəlində minimum əməkhaqqı 130 manatdan 180 manata qaldırıldı. Bu artım əhali tərəfindən böyük rəğbətlə qarşılandı. Ümumilikdə, cari ilin əvvəllərində həyata keçirilən sosial islahatlar paketi milyonlarla insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu. Bununla yanaşı, minimum əməkhaqqının məbləği artırılaraq 250 manat müəyyən olundu. Sosial-iqtisadi sahədə görülən hər bir iş ölkəmizin davamlı iqtisadi inkişafına söykənir".

**Millət vəkilinin sözlərinə görə, əhalinin gəlirinin artırılması, maddi rifahının yaxşılaşdırılması dövlətin öncül qayğılarından biridir və dövlətimiz də buna hər zaman önəm verir: "Minimum əməkhaqqı və minimum pensiyanın artırılması bunun əlamətidir. Minimun əməkhaqqının bir ilin ərzində 130 manatdan 250 manata çatdırılması çox ciddi göstəricidir. Həmçinin, pensiyaların artırılması əhalinin alıcılıq qabiliyyətinin artırılmasına, onların sosial rifahının yaxşılaşmasına ciddi kömək olacaq. Bunlar, bütövlükdə, ölkədə sosial durumun yaxşılaşmasına hədəflənib".**

***Günel CƏLİLOVA***

# Tovuz dağlarında qara zurna səsi

**Millət vəkili Qənirə Paşayeva Tovuzun kitabsevərlərilə görüşə dəvət edəndə tərəddüd etmədən razılıq verdim. Yayın istisi məni və xanımımı qorxutmadı. Getməyə bilməzdik, çünki yazıçının oxucularla görüşü hər dəfə yeni bir stimuldur. Özü də bu stimulu Tovuz rayonunun cəfakeşi, əhalinin hər dərdinə-sərinə, sevincinə və kədərinə şərik olan Qənirə xanımla bir yerdə alacaqdıq. Əlimdə yazılarımın olmasına baxmayaraq, hamısını bir kənara qoyub avqustun 3-də xanımımla Tovuza yola düşdük.**

Xanım əfəndi bizdən bir qədər gec Bakıdan yola düşdü, amma hər saat zəngləşirdik. Hər dəfə suallar verirdi: "Hardasız, aç deyilsiz ki?" deyə ana kimi qayğımıza qalırdı. Hərdən mənə elə gəlirdi ki, sözün əsl mənasında böyük hərflə yazılmağa layiq olan bu XANIM ƏFƏNDİ hər bir azərbaycanlının, hər bir türkün qayğısına qalmağa tələsir, düşünür ki, nə isə etməsə, kiməsə yardım (mənəvi və maddi) əlini uzatmasa fikirləri qarmaqarışıq olacaq, ürəyi təskinlik tapmayacaq, onsuz da az olan yuxusu da ərşə çəkiləcək. Onu lap çoxdan tanımağıma baxmayaraq, səfər yoldaşlığı insanın yeni keyfiyyətlərini aşkarlayır, kəşf edir.

Telefonda cavab verdim ki, Gəncədə Şeyx Nizaminin məqbərəsini ziyarət edəcəm. Dedi ki, əhsən sizlərə! Gərəkdir ki, hər kəs Gəncəyə gələndə bu müqəddəs yeri ziyarət etsin. Məqbərəüstü gəzinti insanın aurasını dəyişir, düşüncələrə vadar edir, böyük ustadın əbədiliyini, bizimsə faniliyimizi bir daha düşüncələrimizdə bərqərar edir. Amma bizimlə ziyarətə yetişə bilmədi...

Maşınla yola düşdüyümüzdən yol boyu müşahidə etdiklərimi yazmaya bilmərəm. Yollarımız çox abadlaşıb, ətrafdakı torpaqlar becərilib, ilan mələyən çöllərə su kanalları çəkilib. Bir sözlə, bəlkə on illərlə boş qalan torpaqlar canlandırılıb, vacib kənd təsərrüfatı obyektinə çevrilib. Bu vacibliyi ona görə vurğulayıram ki, qeyri-neft sektoru olan kənd təsərrüfatı dirçəlir. Bunu nazirə xoş gəlməsi üçün yazmıram, cənab nazirin görəcək işləri çoxdur, axsaq işlərimiz düzələn işlərimizdən çoxdur, amma buz yerindən tərpənib və bu dirçəliş (görəsən köhnə nazir hardadır?) göz görəsi hiss olunur.

Yolda polisə rast gəlməzsən. Bircə Kürdəmir-Ucar arası məsafədən başqa. Zalım uşaqları iyirmi beş il öncəsi kimi elə yerdə gizlənirlər ki, bir də görürsən ki, Ələddinin cini kimi qarşında zühur etdilər. Ümumilikdə isə gözəldir. Hər dörd-beş kilometrdən bir radar və sürət nişanları qoyublar. Qaydanı pozdun, cərimə evinə gələcək, yaxud telefonunda SMS görünəcək. Hə, arada nömrəsiz maşınlar 150-160-la şütüyürlər. Deyilənlərə görə belə maşınlarla razılaşıblar. Düzünü mən bilmirəm. İstənilən halda yollarımız şüşə kimidir. Amma bu nə qədər çəkəcək, bilmirəm. Çünki yükçəkən maşınların məntəqələrində bir də nə də olsun maşın görmədik, baxmayaraq ki, Şağman və KAMazlar yollarda kifayət qədər idi.

Ucardan sonra Yevlaxda "Kür" qəzetinin baş redaktoru Əminə xanıma telefon açsam da telefonu bağlı idi. Ona kitab söz vermişdim. Yaydı, görünür, məzuniyyətdə olduğundan dağlara çəkilib.



Gəncəyə çatanda maşını birbaşa məqbərəyə sürdük. Məqbərəni və muzeyi ziyarət etdik. Oranın işçiləri bizi tanıdılar. Hələ bir gileylərini də etdilər ki, bəs ziyalılarımız rəsmi tədbirlər olmasa sizin kimi fərdi qaydada ziyarətə gəlmirlər. Gileyi qəbul etdim. "Keşmişi gələcəyə ötürməyin bir yolu da budur. İnsanlarımız qaloş pirinə gedirlər, amma Şeyxin - dahi söz ustasının ziyarətinə gəlmirlər. Sözü anlamayan əşyanı özünə büt edəcək. Bu da nəticədə milləti ruhundan uzaqlaşıb bizi meşşana (əşyalara aludə) çevirəcək. Ondan sonra başımızı qapazaltı etmək heç də çətin olmayacaq". Bu fikirləri də özlüyümdə Şeyxin qəbri üstə söylədim.

"Şeyxin ərəblərlə qohumluğu varmı, uzaqdanyaxından olan bir bilgi varmı?" Bələdçi bu sualıma gülümsündü və söylədi ki, yox. Söhbətin davamını mən etdim. Dedim: "Ona görə Şeyx Nizami deyirlər ki, o sözün və qəlblərin Şeyxidir". Bu fikirdən özümün də xoşum gəldi. Onlara da kitablar (əsasən də "Atabəy Eldəniz və "Nadir şah" romanlarını - çünki birincidə Şeyx Nizami obrazı, hər ikisində isə Gəncə təsviri vardı) hədiyyə edib yolumuza davam etdik.

Qoşa yol bitdi Gəncədən sonra, amma iş gedirdi və deyirdilər ki, ta Qırmızı Körpüyə qədər qoşa yol çəkiləcək və bunun da əyani şahidi olduq.

Şəmkirdə bizi başqa aləm gözləyirdi. Yol boyu istixanalar göz oxşayırdı, özü də sayı-hesabı yox idi. Şəmkirlilərə halal olsun! Çalışqandırlar. Nə deyirsən yetişdirib Rusiyaya göndərirlər. Burdakıları da, ordakıları da işlə təmin edirlər, dolandırırlar.

Gəlib Tovuza çatdıq. Şəhər təmizdi, insanları mehriban və səmimidirlər. Şəhərdə hamı bir-birini tanıyır deyə, nabələd adam dərhal tanınır, xoş rəftarları ilə qonağı bir az da utandırırlar.

Qənirə xanım öncədən söyləmişdi ki, Tovuzda "Ayan" palasda qalacaqsınız. Gözəl, beş ulduzlu oteldir. Arxitekturası da möhtəşəmliyi, qədimliyi və duruşu ilə seçilir. Qiymətləri də Göy-Göl turist marşrutları üstündə olan otellərdən iki dəfə ucuzdur, xidmət keyfiyyəti də iki dəfə artıqdır. Burda hiss edirsən ki, sənə qonaq kimi yanaşırlar, cibi dolu olan pullu adam kimi yox. Hətta xanımım İstanbul və Tovuz otellərini müqayisə etdi. İkisi də eynidir. Biri dünyanın böyük meqapolisi, o birisi isə Azərbaycanda əyalət şəhəri, amma fərq yoxdur. Ölkəmiz beləcə göz görəgörə dəyişir. Otelin qarşısında isə Heydər Əliyev parkı göz oxşayır. Təmiz və səliqəli bir park. Axşam olan kimi bura adamla dolu olur. Parkın içində göl və orada süni bir ada salınıb. Tovuzluların bura istirahət etmək üçün sevimli yeridir. İnsanların üzlərinə tez-tez baxıram. Aqressivlik hiss etmirəm. Gündəlik qayğılarının biri də, bəlkə bura gəlməkdir ki, qayğı istirahətə çevrilsin.

Heç otelə yerləşməmiş Qənirə xanımdan zəng gəldi. Dabanbasma özünü yetirmişdi...

***Yunus Oğuz***

# Qənirə Paşayeva ilə Yunus Oğuzun Tovuzda möhtəşəm görüşü...



**Avqustun 4-də Tovuz şəhəri Puşkin adına orta məktəbdə millət vəkili Qənirə Paşayevanın təşəbbüsü ilə yazıçı-publisist Yunus Oğuzun oxucularla görüşü kecirilib.**

Görüşdə şəhər ictimaiyyəti, kitabsevərlər və rayonun kəndlərindən müxtəlif məktəblərin nümayəndələri və kənd sakinləri iştirak edib. Görüşü giriş sözü ilə Qənirə Paşayeva açıb və "Azərbaycan tarixini bilmək nəyə lazimdır?" adlı məruzə ilə çıxış edib. Məruzədə Azərbaycan tarixi, vətənpərvərlik mövzularında Yunus Oğuzun kitablarının əsl mövqeyini açıqlayıb. Bu kitablarda milli və mənəvi dəyərlərimizin təbliğinin neçə aparılmasından danışıb. Daha sonra Yunus Oğuz Qənirə Paşayevanın çıxışını davam etdirərək "Tarix nədir və nə üçün bilməliyik?" mövzusunda məruzə edib. Sonra yazıçı tədbir iştirakçılarının çoxsaylı suallarına cavab verib və 160-dan çox kitab Tovuz ictimaiyyətinə və şagirdlərə imza ilə paylanıb.

# Beynəlxalq İnformatika Olimpiadası Azərbaycana nə verəcək...

**Azərbaycan Cənubi Qafqazda gerçək beyin mərkəzlərindən biri olaraq da tanınır. Təsadüfi deyil ki, bir sıra beynəlxalq statuslu intellekt, bilik yarışları, olimpiadalar ölkəmizin evsahibliyi ilə keçirilir. Bu sahədə böyük təşkilatçılıq təcrübəsinə malik olan Azərbaycan bu dəfə də 31-ci Beynəlxalq İnformatika Olimpiadasına evsahibliyi edir.**

***Kamran Əsədov:** "31-ci Beynəlxalq İnformatika Olimpiadasının ölkəmizdə keçirilməsi Azərbaycanda informatika fənninin tədrisinin keyfiyyətinin artmasına, gənclərin olimpiadaya marağının yaranmasına ciddi şəkildə müsbət təsir göstərəcək"*

Ölkəmizin beynəlxalq olimpiada sahəsində uğurları kifayət qədərdir və Azərbaycanda keçirilən Beynəlxalq İnformatika Olimpiadası da informatika sahəsinin inkişafına dəyərli töhfədir.

Bakıda keçirilən 15-ci Avropa Gənclər Yay Olimpiya Festivalının ardınca belə bir nüfuzlu olimpiadanın da ölkəmizdə təşkil edilməsi müsbət göstəricidir. İnformatika üzrə ilk beynəlxalq olimpiadanın 30 il əvvəl Bolqarıstanda keçirildiyi qeyd edilir.

31-ci Beynəlxalq İnformatika Olimpiadası avqustun 11-dək davam edəcək. Ölkəmizdə ilk dəfə keçirilən Beynəlxalq İnformatika Olimpiadasında Azərbaycan komandası da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyətləri iştirak edirlər.

31-ci Beynəlxalq İnformatika Olimpiadasının əhəmiyyətini şərh edən tanınmış təhsil eksperti Kamran Əsədov hesab edir ki, bu olimpiadanın ölkəmizdə keçirilməsi müsbət haldır. "İlk növbədə qeyd edim ki, istedadlı uşaq və gənclərin aşkara çıxarılmasında, onların həvəsləndirilməsi və təlimdə sağlam rəqabətin yaradılmasında fənn olimpiadaları müstəsna rol oynayır. Olimpiadalar yerli, regional və beynəlxalq olmaqla müxtəlif fənlər üzrə təşkil olunur. Burada əsas məqsəd şagirdlərdə keyfiyyətli təhsilalma, biliklərə marağı artırmaq və ayrı-ayrı fənlər üzrə istedadı və yaradıcı təfəkkürü ilə fərqlənənləri aşkar etməkdir. Fənn olimpiadaları IX-XI sinif şagirdləri arasında Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya, informatika fənləri üzrə təşkil edilir. I-III yerlərin qalibləri diplom və medallarla, IV yerin qalibləri isə tərifnamələrlə təltif edilirlər.

Respublika fənn olimpiadaları riyaziyyat, fizika, kimya, biologiya, informatika, Azərbaycan dili və ədəbiyyatı, coğrafiya və tarix olmaqla, ümumilikdə, 8 fənn üzrə keçirilir. Vacib bir məsələni qeyd edim ki, son illər istedadlı uşaqların aşkar və onların mövcud potensiallarından məqsədyönlü istifadə edilməsi istiqamətində bir sıra layihələr həyata keçirilib".

K.Əsədov qeyd etdi ki, istedadlı uşaqlarla iş və bu istiqamətdə müxtəlif yarış, müsabiqə, yerli və beynəlxalq fənn olimpiadaları ümumi təhsilin bir hissəsini təşkil etməklə ən əsas sahələrdən biri olaraq qalmaqdadır. "İstedadlı şagirdləri vaxtında aşkar etməklə, onları qabiliyyətlərinə uyğun istiqamətləndirməklə gələcəkdə ölkə üçün güclü elm adamları, mühəndislər, iqtisadçılar,



həkimlər və ixtisasından asılı olmayaraq, fərqli düşünən, analiz qabiliyyəti çox yüksək olan mütəxəssislərin yetişməsinə nail olmaq mümkündür. Fənn müsabiqələrinin məntiqi nəticəsi istedadlı uşaqları kəşf etməkdir. Aydın məsələdir ki, istedadlar daha erkən yaşlarda kəşf ediləcəyi təqdirdə şagirdlərin zəruri hazırlığının artırılması istiqamətində ciddi işlərin aparılması mümkün olacaq. Ölkə başçısı tərəfindən təhsilə yüksək səviyyədə göstərilən diqqət və qayğı gələcəyimiz olan gənc nəslin hərtərəfli və peşəkar mütəxəssis kimi formalaşmasında mühüm əhəmiyyət daşıyır. Bu mənada, Təhsil Nazirliyinin istedadlı şagirdlərin üzə çıxarılması, onların bilik və qabiliyyətlərinin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində məktəblilərimiz respublika fənn olimpiadalarında, eləcə də beynəlxalq səviyyəli bilik yarışlarında iştirak edir və uğurları ilə təhsilimizə töhfələrini verirlər.

Olimpiadalarda məktəblilərin əldə etdikləri uğurlara əsasən, qətiyyətlə onların elmi potensialının yüksək olduğunu demək olar. İndi onların sorağı ABŞ, Çin, Koreya, Türkiyə, Rusiya və Avropa ölkələrinin nüfuzlu universitetlərindən gəlir. Respublikamızda keçirilən olimpiadalarda qalib gələn şagirdlər dünya olimpiadalarına göndərilir. Onlar orada da qalib gələndə istədikləri universitetlərə imtahansız qəbul olunmaq şansı əldə edirlər. Xatırladım ki, hazırda Azərbaycan 31-ci Beynəlxalq İnformatika Olimpiadasına (IOI) evsahibliyi edir. 1989-cu ildən keçirilən və informatika sahəsində ən nüfuzlu yarışlardan biri hesab olunan Beynəlxalq İnformatika Olimpiadası hər il dünyanın müxtəlif ölkələrindən məktəblilərə bilik və bacarıqlarını sübut etmək imkanı yaradır. Azərbaycanda ilk dəfə təşkil olunan Beynəlxalq İnformatika Olimpiadasında iştirak üçün milli komandamız da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyəti qeydiyyatdan keçib. Bu nüfuzlu beynəlxalq yarışda ölkəmizi indiyə qədər 24 dəfə təmsil edən Azərbaycan komandaları 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə, 5 medal qazanıblar.

Bu olduqca mühüm hadisədir. 31-ci Beynəlxalq İnformatika Olimpiadasının ölkəmizdə keçirilməsi Azərbaycanda informatika fənninin tədrisinin keyfiyyətinin artmasına, gənclərin olimpiadaya marağının yaranmasına ciddi şəkildə müsbət təsir göstərəcək".

***İradə SARIYEVA***

---

# Ölkədə ümumən müəllimliyə meyl artıb, rus bölməsi müəllimliyinə isə...

**"Müəllimlərin işə qəbulu üzrə keçirilən müsabiqənin test mərhələsi üçün Azərbaycan bölməsinə bir fənn üzrə sənəd verənlərin sayı 2000 nəfər olduğu halda, rus bölməsində bu göstərici 40 nəfər təşkil edir".**



***Məlahət Mürşüdlü:** "Bu gün orta məktəblərdə rusdilli bölmə üzrə müəllim çatışmazlığı yaşanır"*

Bunu təhsil nazirinin müavini Məhəbbət Vəliyeva media nümayəndələrinə açıqlamasında deyib. O bildirib ki, bu il müəllim işləmək üçün müraciət edən namizədlərin 2300 nəfəri rusdilli bölmə üzrə sənəd verib: "Rus bölməsində müəllim işləmək üçün müraciət edənlərin sayı azdır".

M.Vəliyeva əlavə edib ki, ötən il müəllim işləmək üçün müraciət edən 51 min nəfərin 46 mini müsabiqəyə buraxıldı: "Bu il isə müraciət edən 54687 namizədin 48204 nəfəri imtahanda iştirak üçün təsdiq cavabı alaraq müsabiqəyə buraxılıb".

Maraqlıdır, rusdilli bölmə üzrə müəllim işləmək istəyənlərin sayı niyə azlıq təşkil edir?

Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün orta

## "Yeni fəaliyyətə başlayan müəllimlər isə..."

məktəblərdə rusdilli bölmə üzrə müəllim çatışmazlığı yaşanır. Rustəhsilli müəllimlərin sayı olduqca azlıq təşkil edir: "Bir çox məktəbdə rusdilli bölmə üzrə fənni Azərbaycandilli sektoru bitirən kadrlar əvəz edir. Təbii ki, bu amil keyfiyyətə təsir edən amillərdən biridir. Təhsil müəssisələrində rusdilli bölmə üzrə kadr çatışmazlığının səbəblərindən biri də dərs demək bacarığı olan, sağlam pedaqoqların 60 yaşı tamam olduğu üçün yaşla bağlı işdən çıxarılmasıdır. Yeni fəaliyyətə başlayan müəllimlər isə öz ixtisaslarını mükəmməl bilmədikləri və rus dili üzrə yüksək peşəkarlığa malik olmadıqları üçün, bu sektorda problem yaşanır. Bu səbəbdən də orta məktəblərin rusdilli bölməsi üzrə kadr çatışmazlığı qeydə alınır".

***Günel CƏLİLOVA***

# Xalq şairi, Xalq yazıçısı adları yığışdırılır?

**Ədəbi ictimaiyyətdə gəzən söz-söhbətlərə görə, Azərbaycanda Xalq yazıçısı və Xalq şairi fəxri adları ləğv ediləcək. Hətta bu barədə sosial şəbəkələrdə də müəyyən işarələrə rast gəlinir. Maraqlıdır ki, uzun illərdir Xalq şairi və Xalq yazıçısı da daxil olmaqla bütün fəxri adların ləğv edilməsi məsələsi gündəmdədir və zaman-zaman müzakirə edilir.**

***Qiymət Məhərrəmli:** "Hesab edirəm ki, Xalq şairi və Xalq yazıçısı fəxri adları öz aktuallığını itirib"*

***Elşad Barat:** "Mən fəxri adların ləğvinin tərəfindəyəm"*

***Ayaz Arabaçı:** "...ləğv edilməsi daha doğru olardı"*

***Sadiq Qarayev:** "Bu, yazıçı və şairlərə yaradıcılıq stimulu verən bir amildir"*




Böyük əksəriyyət hesab edir ki, fəxri adlar, ümumiyyətlə, ləğv edilməlidir. Bu fikirdə olanların qənaətinə görə, bir əsəri, bir şeiri belə oxucular tərəfindən oxunmayan şəxslərin Xalq yazıçısı, Xalq şairi fəxri adı daşıması doğru deyil. Bəziləri isə hesab edirlər ki, Xalq şairi və Xalq yazıçısı fəxri adları Sovet dövründən miras qalıb və bu adlardan "sovet iyi" gəlir. O da sirr deyil ki, bu gün çox şair və yazıçı fəxri adlar almaq üçün Azərbaycan Yazıçılar Birliyinə davamlı müraciətlər edir. Halbuki, onların əksəriyyətinin yazdıqları ədəbiyyat deyil, sözün həqiqi mənasında, makulaturadır.

Reallıq budur ki, Azərbaycanda Xalq yazıçısı və Xalq şairi fəxri adlarının ləğv edilməsinə tərəfdar olanların sayı günü-gündən artır. Onlar hesab edirlər ki, Xalq yazıçısı və Xalq şairi fəxri adlarını daşıyanların çoxunun yaradıcılığı, yazdıqları bu adların parametrlərinə uyğun gəlmir.

Tanınmış şairə, filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli bizimlə söhbətində bildirdi ki, Xalq şairi və Xalq yazıçısı fəxri adları Sovet dövründə təsis olunub və bu fəxri adlar sovet ədəbiyyatının inkişafında xidmətləri olan yazıçı və şairlərə verilib.

Xalq şairi və Xalq yazıçısı fəxri adları SSRİ-yə daxil olan müttəfiq respublikalarda verilirdi. Hazırda isə bəzi keçmiş sovet respublikaları ilə yanaşı, Azərbaycanda da yazıçı və şairlərə verilir. Bu fəxri adlar Azərbaycan poeziyasının inkişafında böyük xidmətlərinə, xalqın böyük rəğbətini qazanmış yüksək ideyalı və bədii cəhətdən dəyərli ədəbi əsərlər yaratmağa görə yazıçı və şairlərə verilib. Qeyd edim ki, "Azərbaycan SSR xalq şairi" fəxri adı ilk dəfə 1956-cı ildə Səməd Vurğuna verilib. "Azərbaycan SSR-in Xalq yazıçısı" adına isə Şamaxıda doğulan erməni əsilli yazıçı Aleksandr Şirvanzadə layiq görülüb. Bununla da o, Azərbaycan SSR-in ilk Xalq yazıçısı hesab olunur. Ona bu ad 1930-cu ildə verilib".

Azərbaycanda Xalq yazıçısı və Xalq şairi fəxri adlarının ləğv edilməsinin aktuallaşmasına da münasibət bildirən Q.Məhərrəmli bildirdi ki, o vaxt bu fəxri adlar xalqın məhəbbətini qazanan, kitabları əl-əl gəzən, böyük tirajlarla nəşr edilən yazıçı və şairlərə verilirdi. "Bu gün də həmin Xalq şairi və yazıçılarının əsərləri mənim və digərlərinin kitabxanalarında durur. Mən onların kitablarını sevə-sevə oxuyuram və onlardan yeri gələndə bəhrələnirəm də. Bu başqa məsələ. Ancaq bu gün vəziyyət tamam başqadır. Hesab edirəm ki, Xalq şairi və Xalq yazıçısı fəxri adları öz aktuallığını itirib. Bu gün həmin fəxri adlara ehtiyac yoxdur. Mənim fəxri adlara, qondarma diplomlara, yalançı təltiflərə həmişə allergiyam olub. Yazıçı, şair fəxri adla şair yazıçı olmur ki. Fəxri adı olan yazıçı, şair var ki, bir cümləsini, bir misrasını belə oxuyan yoxdur. Hər şey göz qarşısındadır. Sovet dövründə partiyanı, sovet ideologiyasını tərənnüm etməyən şairə Xalq şairi, Xalq yazıçısı fəxri adı verilmirdi. Elə bilirəm ki, həm ədəbiyyat, həm incəsənət, həm də digər sahələrdə fəxri adların verilməsi dayandırılsa yaxşı olar. Bu gün fəxri adı olmayan şair, yazıçı var ki, onları xalq daha çox sevir, oxuyur. Çox arzu edərdim ki, Xalq yazıçısı və Xalq şairi fəxri adları, ümumiyyətlə, götürülsün, buna zərurət yoxdur. Bu gün yazıçı və şairlərin çoxu fəxri ad almaq növbəsinə dayanıb. Biri fəxri ad alır, o biri ala bilmir, bu da özlüyündə böyük söz-söhbət yaradır. Dünya praktikasında fəxri ad heç bir xarici ölkədə yoxdur. Ancaq keçmiş Sovetlər Birliyinə daxil olan bəzi respublikalarda var. Halbuki, keçmiş ittifaq respublikalarının çoxunda fəxri adlar ləğv edilib" - deyə Q.Məhərrəmli qeyd etdi.

Tanınmış yazar Elşad Barat da hesab edir ki, fəxri adların ləğv edilməsi daha münasibdir. "Fəxri adlar ya ədalətlə verilməli, ya da ləvğ olunmalıdır. Bizim cəmiyyətdə ədalətə inamsızlıq olduğunu nəzərə alsaq, bu adların verilməməsi fikrinin yanındayam. Bu yaxınlarda bir çox qələm adamına adlar paylandı. Bəzilərinə fəxri adların verilməsi biz gəncləri narahat edir, ümidsizlik yaradır, həvəsdən salır. Yazmaq eşqimiz ölür. Deməli ki, fəxri adlar qələm adamına yazılarına görə yox, xidmətlərinə görə verilir. Elə isə mən fəxri adların ləğvinin tərəfindəyəm. Həm də bu adlar yazıçılar arasında yazmaq həvəsi yox, "xidmət" etmək həvəsi yaradır. Tarix boyu öz dövründə bu fəxri adları almış insanların əksəriyyəti yaltaq olub" - deyə şair bildirdi.

Tanınmış şair Ayaz Arabaçı da Xalq yazıçısı və Xalq şairi fəxri adlarının ləğv edilməsinə tərəfdardır. "Ümumiyyətlə, fəxri adların verilməsinə heç bir ehtiyac yoxdur. Çünki əsas yaradıcılıqdır. Xalq şairi, yazıçının əsərləri oxunursa, sevilirsə bu kifayətdir. Xalqın sevimli şairi və yazıçısı kimi qələm adamları daha böyük şöhrət qazanırlar. Dünya təcrübəsində Xalq şairi, Xalq yazıçısı fəxri adları yoxdur. Bu, keçmiş SSRİ məkanına aid olan respublikalarda var. Bu fəxri adların ləğv edilməsi daha düzgündür. Ona görə ki, elə adamlar Xalq şairi, Xalq yazıçısıdır, əsl dəyərli qələm adamları kənarda qalıb. Bu seçimin özündə bir ədalətsizlik var. Bu səbəbdən də Xalq yazıçısı və Xalq şairi fəxri adlarının ləğv edilməsi daha doğru olardı. Çünki bu fəxri adların heç bir əhəmiyyəti yoxdur" - deyə A.Arabaçı bildirdi.

Azərbaycan və Rusiya Yazıçılar birliklərinin üzvü, tanınmış yazıçı-alim Sadiq Qarayev isə həmkarlarından fərqli olaraq, Xalq yazıçısı və Xalq şairi fəxri adlarının ləğv edilməsinin tərəfdarı deyil. O hesab edir ki, fəxri ad yazıçı və şairə yaradıcılıq stimulu verir. S.Qarayevin sözlərinə görə, Xalq şairi və Xalq yazıçısı adına qədər istedadlı gənc yazarlara müxtəlif fəxri adlar verilməlidir ki, onların yaradıcılıq əzmi daha da artsın. "Mən əksini düşünürəm. Hesab edirəm ki, Xalq yazıçısı və Xalq şairi fəxri adları ləğv edilməməlidir. Çünki bu, yazıçı və şairlərə yaradıcılıq stimulu verən bir amildir. Hətta Xalq şairi və Xalq yazıçısı fəxri adına qədər istedadlı yazarlara digər fəxri adlar verilsin. Deyək ki, bir istedadlı şairdir, yazıçıdır, xalqı maarifləndirən, Qarabağla bağlı, azərbaycançılıq məfkurəsini özündə ehtiva edən, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə çatdıran bir əsər yazıb, o əsəri yazan yazarın əməyi stimullaşdırılmalıdır. Xalq yazıçısı və Xalq şairi fəxri adı alana qədər ona başqa fəxri ad verilməlidir. Bilirsiniz ki, Xalq şairi və Xalq yazıçısı fəxri adları hər kəsə verilmir. Əvvəllər Xalq yazıçısı və Xalq şairinin əsərləri ona görə çox oxunurdu ki, o zaman indiki kimi informasiya bolluğu deyildi və əsas informasiya mənbəyi şair və yazıçının əsərləri idi. Bu gün informasiya bolluğudur və bu səbəbdən də Xalq yazıçısının, Xalq şairinin əsərləri oxunmur. Bu gün onların əsərlərinin oxunmaması bu yazıçı və şairlərin günahı deyil. Bu, müasir dövrün obyektiv və subyektiv məsələlərindən irəli gələn amildir. Bu gün hansısa yazıçının bir əsəri əsasında film çəkilərsə, onu cəmiyyətdə daha yaxşı tanıyarlar. Eyni zamanda, hazırda Azərbaycan Yazıçılar Birliyinin özünün işini təkmilləşdirmək lazımdır. Orada gənc yazıçı və şairlərə şərait yaradılmalı, istedadlı insanlar üzə çıxarılmalıdır. İl ərzində yaxşı əsərlər yazan, ədəbiyyata yeni ədəbi təfəkkür gətirən, əsərləri cəmiyyətə fayda gətirən qələm adamlarının yazılarının, əsərlərinin nəşrinə kömək etmək gərəkdir".

S.Qarayev qeyd etdi ki, Yazıçılar Birliyi tərəfindən yazarların əsərləri məktəblərdə, ictimaiyyətdə geniş təbliğ edilməli, onlarla canlı görüşlər təşkil olunmalıdır. Sovet dövründə qalma təsisatların, eləcə də fəxri adların ləğv edilməsinin fayda verməyəcəyini deyən S.Qarayev hesab edir ki, ənənələrin üstündən xətt çəkmək yox, onları inkişaf etdirmək lazımdır.

Qeyd edək ki, bəzi ekspertlərimiz fəxri adlarla bağlı danışarkən müxtəlif şəxslərin adlarını çəkmişdilər və onların fəxri adlara layiq olmadıqlarını bildirmişdilər. Ancaq mövzumuz Xalq şairi və Xalq yazıçısı fəxri adlarını alan şəxslərin bu adlara layiq olub-olmadığını müzakirə etmək olmadığı üçün, həmin şair və yazıçıların adlarını qeyd etmədik.

***İradə SARIYEVA***

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) şəhərin mərkəzində yerləşən qəzalı binadan sakinlərin çıxmaqdan imtina etməsi məsələsinə aydınlıq gətirib. Baki-xeber.com xəbər verir ki, BŞİH-nin Mətbuat Xidmətinin rəhbəri İsrafil Kərimov Bakı şəhərinin mərkəzində yerləşən yaşayış binasının hər an uça biləcəyini, lakin bəzi sakinlərin binanı tərk etməkdən imtina etdiklərini deyib.**

# Bakıda hələ 1989-cu ildə qəzalı və sökülməli olan binadan bəzi ailələr bu gün də köçmək istəmir...

## *BŞİH-nin çətin durumu...*



"Söhbət Yasamal rayonu, Mirzə Ağa Əliyev küçəsi 150 ünvanında yerləşən 3 mərtəbəli 43 mənzilli binadan gedir. 1889-cu ildə tikilmiş bina istismar müddəti bitdiyi və uzun müddət əsaslı təmir olunmadığından kəskin qəzalı və yaşayış üçün yararsız vəziyyətə düşüb.

Bina hələ 1989-cu ildə Bakı Şəhər XDS İcraiyyə Komitəsinin 16.06.1989-cu il tarixli, 5/195 saylı Qərarı ilə qəzalı hesab edilərək sökülməli idi. Həmin il sakinlərin oradan köçürülməsinə başlanılaraq binadan 23 ailə köçürülmüş, sonradan isə işlər yarımçıq qaldığından buradakı boşalmış mənzillər Qarabağ münaqişəsinin başlanması ilə əlaqədar öz doğma yurdlarını tərk etmiş məcburi köçkünlər tərəfindən zəbt edilmişdir. O zaman ölkədəki mürəkkəb sosial-iqtisadi vəziyyətlə bağlı sakinlərin köçürülməsi və binanın sökülməsi işləri təxirə salınmışdır.

Keçən 30 il ərzində binada vəziyyət daha da ağırlaşmış, bina yaşayış üçün tam yararsız vəziyyətə düşmüş və burada hər an uçma təhlükəsi yaranmışdır. Bu da sakinlərin həyatı və onların əmlakı üçün ciddi təhlükə yaradır".

İ.Kərimov vurğulayıb ki, hələ 2011 və 2017-ci illərdə Fövqəladə Hallar Nazirliyi, "Azərdövləttikintilayihə" Dövlət Layihə İnstitutunun mütəxəssislərinin burada keçirdikləri təkrar baxışlar bina ilə bağlı əvvəlki rəyləri bir daha təsdiqləmiş, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə onların dərhal köçürülməsi, ərazinin hasarlanması və həyətə girişin məhdudlaşdırılması ilə bağlı akt tərtib olunub:

"Dövlət tərəfindən ayrılmış vəsaitə uyğun bu binada sakinlərin köçürülməsi işlərinə başlanmış və praktiki olaraq buna nail olunmuşdur. 43 ailədən 25-si dövlət tərəfindən ayrılan maddi yardımları alaraq binadan köçmüşlər. Sakinlərin bir hissəsi isə dövlət qurumları qarşısında qeyri-real tələblər irəli sürərək mənzillərini tərk etməkdən imtina etmiş, bundan başqa digərlərini də qanunsuzluqlara təhrik edərək bəzi KİV-də hüquqlarının pozulması ilə bağlı kompaniya təşkil etməyə cəhdlər də etmişlər.

Ötən həftə narazı sakinlərlə Baki Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov da görüşmüşdür. Görüş elə qəzalı binada keçirilmişdir.

Görüşdə Eldar Əzizov binanın kəskin qəzalı olması ilə əlaqədar sakinlərin buradan təcili köçürülməsinin vacibliyini vurğulamış, sakinləri özlərinin və yaxınlarının həyatını təhlükəli vəziyyətdən uzaqlaşdırmağa inandırmağa çalışmışdır. Həmçinin bu zaman bildirilmişdir ki, buradakı köçürülmə dövlət əhəmyyətli tədbirlərlə bağlı köçürülmə deyil, binanın istismara yararsız qəzalı vəziyyətdə olması ilə bağlıdır və vətəndaşlara ödəniləcək vəsait kompensasiya yox, maddi yardım kimi qiymətləndirilməlidir. Sözügedən bu binada sakinlərin köçürülməsi ilə bağlı ödəniləcək məbləğ müvafiq qanunvericiliyə uyğun olaraq şəhər üzrə maksimum həddə müəyyən edilib.

*"Qanunamüvafiq qaydada məcburi şəkildə köçürülmə tədbirlərinin görülməsi tətbiq edilə bilər"*

Sakinlərin böyük əksəriyyəti vəziyyəti dərk edərək özlərinin və yaxınlarının həyatı ilə risk etməkdən imtina etmiş və maddi yardımlarını alıb binanı tərk etmişlər.

Sakinlərlə aparılan söhbətlərdən sonra daha 4 ailə qəzalı binanı tərk etmişdir. Hazirda binada yalnız 12 ailə qalıb ki, onlar özlərinə qarşı xüsusi yanaşma tələb edərək qeyri-real şərtlər irəli sürürlər. Belə ki, bu ailələrdən 6-sı 90-ci illərdə binadakı boşalmış mənzilləri zəbt etmiş məcburi köçkün ailələridir. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən binada məskunlaşmış digər məcburi köşkünlərə bərabər bu ailələrə də Qobupark yaşayış kompleksində yeni təmirli mənzillər təklif edilmişdir. Hətta bu ailələrin bəzilərinə ailə tərkibinə uyğun olaraq 2 mənzil təklif olunmuşdur. Lakin bu vətəndaşlar onlara təklif edilən mənzillərdən əlavə zəbt etdikləri mənzillərdən çıxmaq üçün maddi kompensasiya da tələb edirlər.

Daha 7 ailə isə sahəsi 12-15 kvadrat metr olan kiçik otaqlarda çox çətin şəraitdə yaşamaqda davam edirlər. Onlara müvafiq qanunvericiliyə uyğun olaraq maksimum həddə maddi yardım təklif edilmişdir. Lakin buna baxmayaraq həmin sakinlər qəzalı binadan köçmək istəmirlər.

Paytaxt Bakı şəhərində sakinlərin evlərindən köçürülməsi problemləri yeni deyildir. Dövlət obyektləri və ya yeni bina tikintisi zamanı əksər hallarda sakinlərin böyük hissəsi onlara təklif edilən kompensasiyalarla razılaşırlar. Yalnız bir neçə ailə olur ki, dövlər qurumlarından və ya tikinti şirkətlərindən özləri üçün daha çox, maksimum miqdarda vəsait əldə etmək üçün evlərini tərk etməkdən imtina edirlər. Onlar müxtəlif instansiylara şikayətlər göndərir, hüquqlarının pozulmasını bildirərək bəzi KİV-lərə müraciətlər edirlər.

Yasamal rayonu M.A.Əliyev küçəsi 150 ünvanındakı binadakı vəziyyəti adi problemlər sirasina aid etmək olardı. Çox hallarda sakinlər inadkarlıq edir, sonradan isə vəziyyəti dərk edərək qəzalı binanı tərk edirlər. Buradakı vəziyyətin digərlərindən fərqi isə kəskin qəzalı olan binadan vətəndaşların təcili olaraq təxliyə olunmasının vacibliyidir.

Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi görüş zamanı hər bir sakini təmkinlə dinləmiş, onların şikayət və istəklərinə qulaq asmışlar. Lakin bir vaxt səbr kasası daşa bilər. Əgər insanlar özləri və yaxınlarının həyatının təhlükədə olduğunu başa düşmək istəmir, buna bilərəkdən yol verirlərsə, bu zaman qanunamüvafiq qaydada məcburi şəkildə köçürülmə tədbirlərinin görülməsi tətbiq edilə bilər. Binanın hər an uça biləcəyini yaddan çıxarmaq olmaz. Bu zaman vətəndaşların həyatının təhlükəsizliyindən vacib heç bir şey ola bilməz".

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluğun Mətbuat xidmətlərinin birgə məlumatına görə, avqustun 5-i Qəbələ rayonu Zərgərli kəndində Həsən Əsgərovun həyətində təşkil olunmuş toy məclisində iştirak edən təxminən 500 nəfər qonaqdan 89 nəfəri (19-u qadın, 8-i yetkinlik yaşına çatmayan) qida zəhərlənməsi diaqnozu ilə müalicə müəssisələrinə müraciət edib.**

# Qəbələdə toy yeməklərindən 100 nəfərin zəhərlənməsinə görə konkret hüquqi qərar verildi



Rayon Polis Şöbəsi və prokurorluğunun əməkdaşlarının, eləcə də Qida Təhlükəsizliyi Agentliyinin Şəki Regional bölməsinin əməkdaşlarının iştirakı ilə dərhal hadisə yerinə baxış keçirilib, toy məclisində verilmiş ayrı-ayrı qida məhsullarından nümunələr qablaşdırılaraq götürülüb və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 200.3-cü (bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda) və 314.1-ci (səhlənkarlıq) maddələri ilə cinayət işi başlanıb, insanların zəhərlənmə səbəblərinin və digər halların müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilib.

İlkin araşdırma zamanı müəyyən olunub ki, qonaqlar toy məclisində müxtəlif qida və içki məhsulları (kababları, toyuq əti, salatlar, qarpız, üzüm, düşes, kompot və sair) qəbul etdikdən sonra halları pisləşib, dərhal rayon mərkəzi xəstəxanasına və Qəbələ rayon Müalicə Diaqnostika Mərkəzinə müraciət ediblər.

Hadisə zamanı zərər çəkmiş şəxslərin xəstəxanalara yerləşdirilməsi təmin olunub, onlardan 88-i ilkin tibbi yardım göstərilməklə evə buraxılıb, 1 nəfərin isə stasionar şəraitdə müalicələri davam etdirilir.

Hazırda iş üzrə təqsirkar şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq hərəkətləri davam etdirilir.

AQTA və Baş Prokurorluq bəyan edir ki, qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının pozulmasına yönəlmiş qanun pozuntularının qarşısının alınması istiqamətində bundan sonra da ən ciddi tədbirlər görüləcək.

№ 138 (4036) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

7 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Tunc dövrünə aid insan skeleti tapılıb

## Dünyanın ən yaşlı quşu Türkiyədə tələf oldu

Türkiyədə dünyanın ən yaşlı leyləklərindən biri hesab olunan 34 yaşlı leylək elektirik naqillərinə toxunaraq faciəvi şəkildə tələf olub. "Ölkə.az" bildirir ki, leylək 14 iyun 1985-ci ildə Macarıstanın paytaxtı Budapeştdə dünyaya gəlib. Həmin tarixdə doğulduğunu təsdiq edən "Budapest X843" yazılmış halqa leyləyin ayağına taxılıb. Türkiyənin Əskişəhər ərazisində elektirik naqillərinə toxunaraq tələf olan Leylək Macarıstanda qeydiyyatda olan ən yaşlı quşdur. Qeyd edək ki, leyləklər orta hesabla 25 il yaşayırlar. Hazırda dünyanın ən yaşlı leyləyinin 39 yaşı var.



**Rumıniyanın qərbində yerləşən Alba vilayətindəki Remets yaşayış məntəqəsində arxeoloqların apardıqları qazıntılar zamanı 5 min il yaşı olan insan skeleti tapılıb.**

"AZƏRTAC" bildirir ki, , rumın arxeoloqları Böyük Britaniya və ABŞ-dan olan həmkarları ilə birlikdə iki ildir ki, Treskeu dağının ətəyindəki qədim yaşayış məskənində qazıntılar aparırlar. Artıq buradakı məzar kompleksinin böyük bir hissəsi qazılıb və kurqanda Tunc dövrünün əvvəlinə aid 12 qəbir aşkar edilib. İlkin tədqiqatlar nəticəsində müəyyən olunub ki, skelet cəmiyyətdə yüksək mövqe tutan kişiyə məxsusdur. Onun dəqiq yaşı radiokarbon analizi nəticəsində məlum olacaq. Alimlər ümid edirlər ki, gələcək tədqiqatlar bu yerlərdə Tunc dövründə insanların məişəti haqqında müfəssəl məlumat əldə etməyə imkan verəcək, xüsusən, dəfn ayinlərinin yerinə yetirilməsinə işıq salacaq. Arxeoloq Horiya Çuquqdian mətbuat konfransında bildirib ki, bu, Karpat bölgəsində belə əhəmiyyətli ilk tapıntıdır. Onun sözlərinə görə, həmin məzarlar Tunc dövründə daş blokların istifadəsi ilə düşünülmüş dəfn arxitekturasının mövcud olduğundan xəbər verir. Kurqandakı məzarlarda keramik fraqmentlər, heyvan sümükləri və kömür qalıqları da tapılıb. Burada, həmçinin təyinatı məlum olmayan daş plitələrlə işlənmiş dairəvi otaqlar da tikilib. Alba vilayətində arxeoloji qazıntılara 2011-ci ildə Marbal (Remets zonasında Tunc dövrünün kurqanları) layihəsi çərçivəsində başlanılıb. Arxeoloji ekspedisiyanın tərkibinə Alba-Yuliya Milli Muzeyinin əməkdaşları, həmçinin Böyük Britaniya və ABŞ alimləri daxildirlər.



## Astronomlar qalaktikamızın ilk ulduzlarından birinin izini tapıblar

**Astronomlar qalaktikamızın ilk ulduzlarından birinin izini tapıblar. "AZƏRTAC" bildirir ki, bu kəşf Avstraliya Milli Universitetinin rəsədxanasının astronomlarının səyləri nəticəsində mümkün olub.**

Universitetin mətbuat xidmətindən bildirilib ki, göy cisminin parçaları Süd Yolu qalaktikasının kənarlarında aşkar edilib. Avstraliya Milli Universitetinin astronomu Tomas Nordlanderin sözlərinə görə, Günəş sistemindən 35 min işıq ili məsafədə aşkar edilmiş bu qırmızı nəhəng parçaların qalaktikamızın ilk ulduzlarından birinin ölməsi zamanı əmələ gəldiyi ehtimal olunur. O əlavə edib: "Bizim bu tapıntını özünəməxsus zaman maşını hesab etmək olar, çünki o, astronomları Kainatın ilk ulduzlarından birinin yarandığı dövrə qaytarır. Tapılan ulduzun elementlərinin strukturu milyardlarla il əvvəl doğulmuş ulduzun partlaması nəticəsində yaranıb". Universitetin alimləri Süd Yolu qalaktikasının kənarında aşkar edilən ulduzun elementlərinin strukturunu Kainatın digər ilk ulduzları ilə müqayisə ediblər və məlum olub ki, bir çox bənzərliklər mövcuddur. Belə ki, SMSS J160540.18-144323.1 adlandırılan qırmızı nəhəng ulduzda dəmirin miqdarı həddindən çox azdır. Astronomlar hesab edirlər ki, bu, həmin göy cisminin Kainatın ilk ulduzlarından biri olduğunu göstərir. Nordlander vurğulayıb: "Düşünürük ki, qədim ulduzun zəif partlaması nəticəsində ayrılan enerji o qədər az olub ki, ağır elementlərin çoxu onun tərkibində qalıb, yalnız kiçik bir hissəsi kosmik fəzaya dağılıb və bizim aşkar etdiyimiz köhnə ulduzu formalaşdırıb. Onun Böyük partlayışdan (Big Bang) bir neçə yüz il sonra əmələ gəldiyi ehtimal olunur ki, bu da kosmik miqyasda o qədər də böyük müddət sayılmır. Həmin ulduz indi də mövcuddur. Əgər belə demək mümkünsə, bu, çox anemiyalı ulduzdur və onun tərkibindəki dəmirin miqdarı Günəşdə olduğundan 1,5 milyon dəfə azdır. Bu göy cismində hər 50 milyarddan təkcə bir atom dəmirdir və bu, olimpiya hovuzunda bir damla qədərdir. Astronomlar qeyd ediblər ki, indi ilk ulduzların aşkar edilməsi ehtimalı olduqca azdır, çünki onların dəmək olar ki, heç biri günümüzə gəlib çıxmayıb və məhv olublar.

## Elan

Əliyeva Nazilə Vəli qızının adına, Bakı şəhəri, Novxanı qəsəbəsində yerləşən bağ sahəsinə verilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Balışov Oktay Niymət oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül şosesi, 3-cü köndələn küçəsi, 2090-cı məhəllədə qeyri-yaşayış sahəsinin şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Şamilov Yasin Eyvaz oğlunun adına, Abşeron rayonu, Saray qəsəbəsində yerləşən torpaq sahəsinin RX N0043463 reyestr N308013002720 HDQHDƏDR-dən çıxarış NAA041462 plan və ölçüsü itdiyi üçün etibarsız sayılır.

İbadova Cəmilə Kamil qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, Kazımzadə küçəsi, ev 15, mənzil 21 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Həsənova Səlimnaz Söyün qızının adına, Bakı şəhəri, Q.Qarayev prospekti, ev 37, mənzil 75 ünvanının kupçası (çıxarış) itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Yaxın ətrafınızdakı insanlarla dil tapmaq üçün bu gün çalışmalı, səy göstərməli olacaqsınız. Sizi düzgün anlamır, layiq olduğundan az dəyər verir, hətta arabir inanmırlar da.



**Buğa** - Şəxsi həyatınızdakı problemləri həll etməmiş yeni məqsədlərə can atmayın. Cəhdlərinizin effektivlik səviyyəsi aşağıdır. Peşəkar fəaliyyət müstəvisində işləri təftiş edin, vəziyyəti dəyərləndirin.



**Əkizlər** - Hadisələrin ritmini siz diqtə etmirsiniz. Çalışdığınız təşkilatda qaydaları pozmayın. Əməkdaşlıq etdiyiniz şəxslə təmaslarda diqqətli olun. Müzakirələr, yeni tərəfdaşlığın nəzərdən keçirilməsi üçün münasib zamandır.



**Xərçəng** - Bu gün önəmli irəliləyiş və ya ciddi uğur olmasa da, sizin üçün əlverişli keçəcək. Əhvalınız yaxşı olacaq, enerji və nikbinlik çatışmazlığından şikayətlənməyəcəksiniz.



**Şir** - Günün ilk yarısından etibarən dürüst taktika seçin. Olayları tələsdirməyin, hadisələrə süni təkan verməyin. Realist olsanız, şəraitdən maksimum dərəcədə yararlana bilərsiniz. İdealist olmayın, bəzi illüziyalar və xəyallarla vidalaşın.



**Qız** - Bədbinliyə qapılmayın, fəal olun. Tənhalığa can atmayın. Səhhətinizlə problemlər yaratmayın. Tonusunuzun qeydinə qalın. Ailə üzvlərinin problemlərini qulaqardına vurmayın.



**Tərəzi** - Günün ilk yarısında dəqiq hesablarınıza rəğmən işlərdə müəyyən axsamalar və problemlər yarana bilər. Olayların zahiri görüntülərinə aldanmayın, izharların əsiri olmayın.



**Əqrəb** - Qarşılıqlı hesablaşmalarda diqqətli olun. Alış-verişdə bədxərclik etməyin. Mümkün qədər çox məlumat və informasiya əldə etməyə çalışın. Proqram təminatında problemlər istisna deyil.



**Oxatan** - Bu gün baş verəcək hadisələrə real baxın. Əsassız nikbinliyə, qüvvənizin gerçək səviyyədən artıq dəyərləndirilməsinə və xam xəyallara qapılmayın. Əfsuslar olsun ki, belə darvanışınız yaxşı heç bir nəticə verməyəcək.



**Oğlaq** - Effektivliyinə şübhə etdiyiniz fəaliyyəti dayandırın. Yeni istiqamət seçmək və fəliyyət yönünü bəlirləmək olar. Yaşanan situasiyanı diqqətlə müşahidə edin. Köhnə səhvləri təkrarlamayın.



**Dolça** - Günün ilk yarısından etibarən seçdiyiniz kurs ümümilikdə pis deyil. Lakin müəyyən sistem səhvləri var. Həmin yanlışlıqları mümkün qədər tez aşkarlayaraq aradan qaldırmağa çalışın.



**Balıqlar** - Həddən artıq ehtiyatlı, sayıq olun. Sizi tələyə salmaq istəyirlər. Başqalarının məkri ilə yanaşı, diqqətsizliyiniz, izafi inamınız sizi sonradan ağır fəsadlar yaradacaq situasiyalara düçar edə bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Geyinilə bilən sağlıq monitoru hazırlanıb

**Elm adamları geyinilən texnologiyadan istifadə edərək sağlamlıq monitoru istehsal ediblər.**

Monitoru bədəninizə yapışdıraraq ürək döyüntünüzün surətinizə, tənəffüs sürətinə və hərəkət fəallığını ölçə bilərsiniz. "Chip.az" bildirir ki, tədqiqatçılar elastik elektron parçalarından istifadə edilərək kabelsiz geyinilən sağlamlıq monitoru hazırlayıblar. Bu sensor sayəsində yaşlıların, uşaqların dəri yaralanmaları və ya allergik reaksiyalar olmadan rahat və uzun müddətli olaraq izlənməsinin asanlaşması məqsədi daşıyır. Ənənəvi sensorlar çox kiçik və ya çox yaşlı insanların dərilərində bəzi zədələrə yol açır. Geyinilə bilən sensor səsyazma cihazına 15 metrə qədər EKG, ürək atış sürəti, tənəffüs sürəti və hərəkət fəallığını bildirir. Sensor xüsusilə ənənəvi monitorlar tərəfindən zərər görən həssas dəriyə malik olanlar üçün hazırlanıb. Yeni sensorun digər bir əhəmiyyətli xüsusiyyəti isə dəriyə tabe olması səbəbilə səciyəvi metal elektrodların dəri üzərində hərəkət etməsi ilə yaranan siqnal problemlərini həll etməsidir. Bu cihaz kabelsiz olduğundan istifadəçilərin bədəninə bərkidilmiş bir kabelə də ehtiyac olmayacaq. Monitor 3 santimetr diametrindədir və kiçik bir doldurma batareyası ilə işləyir. Sonrakı mərhələlərdə bu batareyanın xarici bir RF doldurma sistemi ilə dəyişdiriləcəyi gözlənilir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır.

(Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.